# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 23 (3439) Cümə axşamı / 15-22 iyun 2022-ci il Qiyməti 40 qəpik


# Bir yaşlı Şuşa Bəyannaməsi

Azərbaycan və Türkiyənin dövlət başçılarının Qarabağın mirvarisi Şuşa şəhərində imzaladığı Şuşa Bəyannaməsinin bir ili tamam olur. Şuşa Bəyannaməsinin siyasi, hərbi, mədəni əhəmiyyəti ekspertlər tərəfindən təhlil olunmaqla perspektivləri araşdırılır. Ölkə ictimaiyyəti müzakirələri bir neçə sual ətrafında aparır: 15 İyun Şuşa Bəyannaməsinin imzalanması Türkiyə-Azərbaycan strateji əməkdaşlığında hansı əhəmiyyətə malikdir? Şuşa Bəyannaməsinin bölgənin təhlükəsizliyində rolu nədir? Hafta.az siyasi ekspertlərlə bu suallara aydınlıq gətirməyə çalışıb:

*Şuşa Bəyannaməsinin maddələrinə əsasən Qarabağda antiterror əməliyyatı apara bilərik*

*Şuşa Bəyannaməsi Türkiyənin minihərbi modelinə keçidə işıq salacaq*



**Teymur Qasımlı, politoloq:**



- Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanla Türkiyə arasında strateji müttəfiqliyi daha da dərinləşdirir. 10 Noyabr sazişindən sonra Azərbaycan-Türkiyə əməkdaşlığı hərtərəfli sahədə dərinləşdirilməli və yeni ittifaqlar qurulmalıdır. Şuşa Bəyannaməsi yerində imzalanan sənəddir. Bu, həmçinin dünyaya, qonşu dövlətlərə belə bir mesaj verir ki, 10 noyabrdan sonra Türkiyənin Cənubi Qafqazda varlığı Şuşa Bəyannaməsi ilə təsdiqlənir.

Azərbaycanın dövlət bütövlüyü, suverenliyi Türkiyə ilə əməkdaşlıqdan keçir. Dünyaya əsas mesaj budur ki, Türkiyə-Azərbaycan müttəfiqliyi bölgədə daimidir. Şuşa Bəyannaməsi ratifikasiya olunduqdan sonra hərbi və təhsil sahələrində proses gedir. Azərbaycanla hərbi təhsil sahəsində əməkdaşlığa başlanılıb. Şuşa Bəyannaməsi Azərbaycanın bölgədəki əməkdaşlığına, təhlükəsizliyinə çox böyük əhəmiyyət verir. Biz Şuşa Bəyannaməsinin maddələrinə əsasən Qarabağda antiterror əməliyyatı apara bilər, həm də Türkiyə Silahlı Qüvvələrini hər an ora dəvət edə bilərik. Şuşa Bəyannaməsi türk birliyinin qurulmasına deyil, türk dövlətləri ilə əməkdaşlığa gətirib-çıxaran bir sənəddir.

**Elxan Şıxəliyev, hərbi ekspert:**



- Şuşa Bəyannaməsinə doğru gəldiyimiz yolu qiymətləndirsək görərik ki, Türkiyənin hərbi və siyasi müstəvidə Azərbaycanla əməkdaşlığının kökü 1992-ci ildən başlayır. Məhz həmin ildən bu yana Türkiyə siyasi hakimiyyəti və silahlı qüvvələrinin mənsubları Qarabağ məsələsində, beynəlxalq siyasi, iqtisadi platformalarda Azərbaycanın yanında olub. Hələ 1992-ci ildən başlayaraq Azərbaycan Silahlı Qüvvələrinin mənsubları Türkiyə Cümhuriyyətinin hərbi strukturlarına ezamiyyətə göndərilir, sonrakı mərhələlərdə Azərbaycan Silahlı Qüvvələrinə təlimatçı və vasitəçilər qismində gəliblər. Türkiyə zabitləri zaman-zaman Silahlı Qüvvələrimizdə komandirlərin, idarə rəislərinin yanında müşavirlər olaraq çalışıblar. Əslində, 44 günlük müharibə ərəfəsində hər zaman yanımızda oldular və özlərinin bilik və bazarıqlarını təcrübələrini Azərbaycan Silahlı Qüvvələrinin formalaşmasında istifadə etdilər. Belə ki, Heydər Əliyev adına Hərbi Liseyin qurulmasında, yenidən təşkilatlanmasında, Azərbaycan Hərbi Akademiyasının yaradılmasında, hərbi təhsil doktrinamızın NATO doktrinasına uyğunlaşdırılması yönündə, hərbi ədəbiyyatımızın Türkiyədə istifadə olunan NATO modelinə keçidində, eləcə də Gizirlər Məktəbinin yaradılması, müddətdən artıq xidmət edənlər üçün təlim-tədris mərkəzinin yaradılmasında yaxında iştirak ediblər.

Təbii ki, Şuşa Bəyannaməsi ilə bizim Silahlı Qüvvələr çərçivəsindəki strateji əməkdaşlığımız strateji müttəfiqlik səviyyəsinə qaldırılmalı idi. Yəni Azərbayacanın təhlükəsizliyi Türkiyənin təhlükəsizliyinə, Türkiyənin də təhlükəsizliyi Azərbaycanın təhlükəsziliyinə bərabər tutulur. Bu çox mühüm məqamdır. Şuşa Bəyannaməsində Təhlükəsizlik məsələlərində qarşılıqlı təminatın verilməsi əsas ana xətt kimi özünü biruzə verir və verəcəkdir...

**Aydın Quliyev, siyasi şərhçi:**



- Şuşa Bəyannaməsi Türkiyə-Azərbaycan münasibətlərinə rəsmi müttəfiqlik xarakteri verən iki dövlət arasında imzalanmış mühüm sənəddir. Şuşa Bəyannaməsinə qədər də Azərbaycanın və Türkiyənin müttəfiqliyi barədə danışırdıq. Amma bu müttəfiqlik rəsmi qaydada heç bir sənəddə əks olunmamışdı. Sadəcə olaraq 1994-cü ildə imzalanmış müqavilədə, həmin sənədə əsasən imzalanmış protokolda və 2010-cu ildə imzalanmış dövlətlərarası müqavilələrdə müttəfiqlikdən yox, strateji tərəfdaşlıqdan, əməkdaşlıqdan, qardaşlıqdan və qarşılıqlı yardımdan danışılırdı. Türkiyə-Azərbaycan münasibətlərinin rəsmən müttəfiqlik kimi xarakterizə edilməsi və müttəfiqlik sənədi adlandırılması ilk dəfə olaraq Şuşa Bəyannaməsində öz əksini tapa bildi. Şuşa Bəyannaməsinin böyük tarixi əhəmiyyəti bundan ibarətdir. Şuşa Bəyannaməsinin təsiri altında ilk dəfə olaraq Azərbaycan-Türkiyə arasında hərbi komondos qoşunları gerçəkləşdi. Şuşa Bəyannaməsində aydın göstərilir ki, iki mütəfiq ölkə özlərinin hərbi birləşmələrinin təkmilləşdirilməsi, modernləşdirilməsi və birgə hərbi tədbirlərin keçirilməsini müəyyənləşdirirlər...

**Hasan Oktay,**
**Türkiyənin Qafqaz Strateji Araşdırmalar Mərkəzinin (QAFSAM) rəhbəri:**



- Azərbaycan müstəqillik əldə etdikdən sonra Türkiyə ilə Azərbaycan arasında imzalanan müqavilələrdə iki ölkə arasında münasibətlərin hansı səviyyədə olduğunu göstərə bilən "strateji tərəfdaşlıq" ifadəsindən istifadə olunub. Əslində bu bəyanat beynəlxalq münasibətlərdəki vəziyyəti ümumiləşdirir ki, "dövlətlər arasında qardaşlıq yoxdur, maraqlar var". 2020-ci il sentyabrın 27-də başlayan və 2020-ci il noyabrın 10-da Azərbaycanın qələbəsi ilə başa çatan İkinci Qarabağ müharibəsindən sonra imzalanan Moskva müqaviləsi Azərbaycanın maraqlarına o qədər də xidmət etmədi.

Türkiyə -Azərbaycan "Müttəfiqlik münasibətləri" 2021-ci il iyunun 15-də Türkiyə Respublikası və Azərbaycan Respublikası" arasında imzalanmış sənədlə möhürləndi, "Şuşa Bəyannaməsi" adı ilə müqavilə imzalandı. "Şuşa Bəyannaməsi göstərdi ki, bu iki ölkə arasındakı münasibətlər "strateji tərəfdaşlıq" çərçivəsindən kənardadır. Yəni bu Bəyannamə ilə iki ölkə arasında münasibətlər indi müttəfiqlik səviyyəsinə qaldırılıb. Bundan əlavə, bu Bəyannamə ilə beynəlxalq hüquqda gücdən istifadəyə icazə verən özünümüdafiə hüququ hərtərəfli tənzimlənir...

Səh. 3

MÜSAHİB

## Rusiya Qarabağ müharibəsində istədiyinə nail ola bilmədi



**Ərəstun Oruclu,**
siyasi təhlükəsizlik məsələləri üzrə ekspert

*Siyasi təhlükəsizlik məsələləri üzrə ekspert Ərəstun Oruclu ilə Hafta.az üçün budəfəki söhbətimizdə 100 gündən çoxdur davam edən Ukraynadakı savaşdan meydana çıxan siyasi nəticələr, Ermənistandakı son ayların "müqavimət hərəkatı" və Rusiyaya bağlı revanşist müxalif qüvvələrin hakimiyyətə gələ bilmək şanslarından, həmçinin son günlər Rusiya "sülhməramlıları"nın Tərtər istiqamətində fəallaşması və separatçı erməni ünsürlərinin Şuşanın kəndlərində Azərbaycan tikinti karvanlarının qarşısını kəsməyə cəhdlərinin meydana çıxmasından bəhs etdik.*

*Sülhməramlıların rəsmi statusunun olmaması Azərbaycan üçün müsbət haldır...*

Səh. 5

TARİX




## 15 iyun - Qurtuluş Günü

- 1997-ci ilin iyun ayında Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə 15 İyun Milli Qurtuluş Günü kimi bayram elan edildi
- Ulu Öndər ikinci gəlişi ilə Azərbaycan tarixində yeni bir mərhələnin başlanğıcını qoydu
- Ulu öndər Azərbaycanı regional və beynəxalq güclərin əlindən qurtararaq, müstəqil və suveren Azərbaycan Respublikası quraraq bizlərə əmanət etdi
- Həm Qurtuluş Günü, həm də Şuşa Bəyannaməsi bugünün Azərbaycan tarixində özünəməxsus təqvimlərdən biridir

Səh. 2

GÜNÜN FOTOSU...



Şəhid övladları məzun oldu

GÜNÜN SİTATI

*"Yeni tədris ilində məktəblərdə testlərin elektron vəziyyətdə keçirilməsini çox istərdik"*



**Emin Əmrullayev,**
təhsil naziri

KARİKATURA




Erməni revanşistlərini gözləyən aqibət

## Əlillik təyinatında yeni meyarlar

**Məhluqə Rəhimova,**
Əlil Qadınları Cəmiyyətinin sədri

Sağalmaz xəstəliklərlə bağlı uşaqlara müddətsiz əlillik təyin ediləcək və heç vaxt təkrar qiymətləndirmə aparılmayacaq.

Səh. 5

STATİSTİKA



- 2022-ci ilin yanvar-may aylarında əsas kapitala 4915,5 milyon manat məbləğində, yaxud 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz az vəsait yönəldilib.
- Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 23,6 faiz azalıb, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 14,6 faiz artıb.
- İstifadə olunmuş vəsaitin 2829,6 milyon manatı və ya 57,6 faizi məhsul istehsalı sahələrinə, 1799,0 milyon manatı (36,6 faizi) xidmət sahələrinə, 286,9 milyon manatı (5,8 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub.



Səh. 7

## Turistləri daşıyan avtobus qəzaları

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezident İlham Əliyev aktyor və rejissor Tofiq Mirzəyevlə bağlı iki Sərəncam imzalayıb.**

Birinci Sərəncamla Azərbaycan kino sənətinin inkişafında xidmətlərinə görə Tofiq İbrahim oğlu Mirzəyevə "Xalq artisti" fəxri adı verilib.

Dövlət başçısının digər Sərəncamı ilə Azərbaycan kinematoqrafiyasının inkişafında səmərəli fəaliyyətinə görə T. Mirzəyev "Şöhrət" ordeni ilə təltif edilib. Qeyd edək ki, iyunun 16-da T. Mirzəyevin 90 yaşı tamam olacaq. O, "Uşaqlığın son gecəsi", "Nəsimi", "Təhminə", "O qızı tapın", "İstintaq" və s. filmlərdə rol alıb. T. Mirzəyev "Qaya" vokal qrupunun yaradıcılardan biri və solisti olan Teymur Mirzəyevin qardaşıdır.

***

**Prezident İlham Əliyev Qəbələ rayonunun Ağdaş-Zarağan (40 km)-Böyük Pirəli-Kiçik Pirəli-Xırxatala-Cığatelli-Həmzəli avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncamda deyilir:**

"1. Yeddi min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Ağdaş-Zarağan (40 km)-Böyük Pirəli-Kiçik Pirəli-Xırxatala-Cığatelli-Həmzəli avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.9-cu yarımbəndinə uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 12,7 milyon (on iki milyon yeddi yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin".

## Bu qələbə Azərbaycan idmanının tarixində qalacaq



**İyunun 14-də Prezident İlham Əliyev Slovakiyada keçirilmiş minifutbol üzrə Avropa çempionatının qalibi olan milli komandamızın üzvlərini qəbul edib.**

Komandanı tarixi qələbə münasibətilə təbrik edən dövlət başçısı bildirib ki, bu qələbə Azərbaycan idmanının tarixində qalacaq. Çünki ilk dəfədir ki, ölkəmiz komanda idman növündə Avropa çempionu olmuşdur:

Azərbaycanda idmanın inkişafı ilə bağlı çox işlər görülüb, ancaq bu günə qədər komanda idman növündə biz böyük uğurlara nail ola bilməmişik. Düzdür, bizim şahmatçılarımız iki dəfə Avropa çempionu olmuşlar, amma şahmat fərdi idman növüdür, sadəcə olaraq, komanda şəklində çıxış etmiş şahmatçılarımız bu böyük nailiyyəti əldə etmişlər. Ancaq oyun idman növlərində belə bir qələbə olmamışdır. Ona görə bu qələbənin çox böyük mənası var və əminəm ki, digər idman növləri üçün bu, çox gözəl nümunədir".

Prezident bildirib ki, hər dəfə beynəlxalq yarışlarda idmançılarımız qələbə qazananda əminəm ki, hər bir vətənpərvər insan qürur hissi keçirir, hər dəfə bayrağımız qaldırılanda hər birimiz sevinirik: "Qələbələr xalqımıza yaraşır, həm döyüş meydanında, həm idman arenalarında. Əminəm ki, Azərbaycan idmançıları bundan sonra da beynəlxalq yarışlarda Vətənimizi ləyaqətlə təmsil edəcəklər.

Dövlət tərəfindən bütün şərait yaradılıb və idmanın inkişafı ilə bağlı heç bir maneə yoxdur, əksinə dövlət dəstəyi daim göstərilir. Ancaq minifutbol idman növünə gəldikdə, bizim üçün bu, nisbətən yeni idman növü olduğuna görə bu sahədəki nailiyyətləri siz özünüz qazanmısınız. Mən deyə bilmərəm ki, minifutbolçular üçün hansısa xüsusi şərait yaradılmışdır, yaxud da ki, xaricdən tanınmış mütəxəssislər, məşqçilər, legionerlər dəvət edilmişdir, yox, bunların heç biri olmayıb. Ona görə sizin qələbəniz çox böyük qiymətə layiqdir. Bu qələbəni siz özünüz qazanmısınız, əlbəttə ki, federasiya və idman mütəxəssisləri, məşqçilər və oyunçular, idmançılar, - komanda deyəndə mən bunu nəzərdə tuturam, - siz bu qələbəni halal zəhmətinizlə qazanmısınız.

Azərbaycanda idmana da, idmançılara da diqqət göstərilir. İdmançılar dövlət tərəfindən hər zaman qayğı ilə əhatə olunurlar və bu, təbiidir. Çünki idman, idmanda qələbələrimiz həm ölkəmizin beynəlxalq nüfuzunu qaldırır, eyni zamanda, sağlam həyat tərzini təbliğ edir və bu, hesab edirəm ki, daha vacibdir. Çünki hamımız istəyirik ki, Azərbaycan xalqı sağlam olsun, gənclər kütləvi surətdə idmanla məşğul olsunlar. İdmanın kütləviliyinin genişləndirilməsi və idmanda qələbələrin əldə edilməsi üçün dövlət idmançılara, klublara, federasiyalara həmişə böyük diqqət və qayğı göstərir. Əminəm ki, bundan sonra Minifutbol Federasiyamız da dövlət tərəfindən eyni qayğı ilə əhatə olunacaq".

Dövlət başçısı vurğulayıb ki, bu uğuru təkrarlamaq çox çətin olacaq: "Amma əminəm ki, komandamızın perspektivləri də çox gözəldir. Əminəm, bu qələbədən sonra gənc nəsil - uşaqlar, yeniyetmələr bu idman növünü seçəcəklər ki, sizin kimi Avropa çempionu olsunlar".

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# 15 iyun - Qurtuluş Günü

***15 iyun 1993-cü il müstəqil Azərbaycanın tarixinə qızıl hərflərlə yazılıb. Ulu Öndər Heydər Əliyev dövlətçiliyi, fiziki mövcudluğu məhv olmaq ərəfəsində olan xalqının tələbi ilə yenidən hakimiyyətə qayıtdı. Dövlətinin və xalqının ən çətin günlərində var gücü ilə Azərbaycanın müstəqilliyini qorumaq, milli birliyi yenidən təsis emək üçün bütün imkanlarını səfərbər etdi. Azərbaycan xalqı neçə ildir ki, bu tarixi Qurtuluş Günü kimi qeyd edir. Siyasilər bu tarixin əhəmiyyəti, onun dövlətçilik tariximizdəki yeri ilə bağlı fikirlərini hafta.az-a bölüşüblər.***



"

*1997-ci ilin iyun ayında Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə 15 İyun Milli Qurtuluş Günü kimi bayram elan edildi*

*Həm Qurtuluş Günü, həm də Şuşa Bəyannaməsi bugünün Azərbaycan tarixində özünəməxsus təqvimlərdən biridir*

*Ulu Öndər ikinci gəlişi ilə Azərbaycan tarixində yeni bir mərhələnin başlanğıcını qoydu*

*Ulu öndər Azərbaycanı regional və beynəxalq güclərin əlindən qurtararaq, müstəqil və suveren Azərbaycan Respublikası quraraq bizlərə əmanət etdi*

## Tarix



**Adil Əliyev,**
Milli Məclisin sədr müavini

■ **Milli Məclisin sədr müavini Adil Əliyev hafta.az-a bildirib ki, 1993-cü ilin iyununda Azərbaycan tarixində ən ağır, ən acınacaqlı və çətin dövrlərdən birini yaşayırdı.** Ölkədə tüğyan edən siyasi hərc-mərclik və faktiki çoxhakimiyyətlilik, iqtisadi tənəzzül, gün-gündən ağırlaşan sosial durum, Ermənistanın hərbi təcavüzü, müxtəlif xarici qüvvələrin artıq işə düşmüş məkrli planları fonunda fəlakətin astanasında olan ölkədə xalqın ümidi qırılmaqda idi. Bütün ümidsizliyinə və xəyal qırıqlığına baxmayaraq, Azərbaycan xalqı bu vəziyyətdən nicat yolunu hələ Sovet dövrünün şərtləri daxilində ölkənin inkişafı üçün mümkün olan hər şeyi etmiş Heydər Əliyevdə görürdü. Buna görə də xalq təkidlə Heydər Əliyevi paytaxt Bakıya səsləyir, ölkəyə rəhbərlik etməyə, ölkəni müstəqilliyinin ilk illərində düçar olduğu son dərəcə məyusedici durumdan, vətəndaş müharibəsindən xilas etməyə çağırırdı. Zaman göstərdi ki, Azərbaycan xalqı yanılmamışdı.

Deputat bildirib ki, xalqının səsinə səs verən ulu öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da Bakıya qayıtdı. İyunun 15-də o, Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. İyunun 24-də isə Milli Şuranın qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1997-ci ilin iyun ayında Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə 15 İyun Milli Qurtuluş Günü kimi bayram elan edildi.

A.Əliyev qeyd edib ki, ulu öndər Heydər Əliyevin əldə etdiyi nailiyyətlər Qurtuluşun rəmzləridir və Qurtuluş Gününü bayram etməyə əsas verən hadisə və uğurlar kimi tariximizdə əbədi qalacaqdır.

"İlk növbədə, ölkədə vətəndaş müharibəsinin qarşısı alındı, asayiş və qayda-qanun bərqərar edildi, müxtəlif silahlı dəstələr buraxıldı və ya ləğv edildi, nizami ordu yaradıldı. Qarabağ müharibəsində atəşkəs əldə edildi ki, bu da Azərbaycana özünə gəlmək, iqtisadiyyatını qurmaq, neft müqavilələrini imzalamaq və həyata keçirmək, peşəkar ordu quruculuğu üçün vaxt və imkan qazandırdı. Eyni zamanda, müstəqil Azərbaycan dövlətinin Konstitusiyası hazırlandı, inzibati idarəçilik formalaşdırıldı, dövlətçilik məfhumu praktik olaraq inkişafa başladı. Bir neçə dövlət çevrilişi cəhdlərinin qarşısı alındı. Azərbaycan Respublikasının beynəlxalq münasibətləri formalaşdırıldı, ölkə beynəlxalq aləmə səmərəli inteqrasiya prosesinə qoşuldu".

A.Əliyevin sözlərinə görə, ulu öndər Heydər Əliyevin Azərbaycanda millət və dövlət quruculuğuna verdiyi misilsiz töhfələr onun fəaliyyətinin ana xətlərini təşkil edirdi.

"Düzgün milli ideologiya olmadan xalqı, əhalini millət kimi birləşdirmək, millət və dövləti isə bir-birinə sarsılmaz surətdə bağlamaq və millət-dövlət fenomeninə nail olmaq müşkül olur. Ulu Öndərin Azərbaycançılıq məfkurəsi bu vəzifənin öhdəsindən gəlmək, Azərbaycanın milli dövlətini möhkəm və etibarlı əsaslarla qurmaq missiyasını uğurla yerinə yetirmək yolunda misilsiz rol oynadı. Azərbaycançılıq ümumbəşəri dəyərlərə hörmətə, dini, etnik, dil və sair mənsubiyyətindən asılı olmayaraq Azərbaycana və Azərbaycan dövlətinə bağlılığa və Azərbaycana bağlı olanların həmrəyliyinə əsaslanır. Azərbaycandakı bütün xalqların nümayəndələrinin din və etnik mənsubiyyətindən asılı olmayaraq, 44 günlük Vətən müharibəsi zamanı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Dəmir Yumruğu" ətrafında sarsılmaz birlik və həmrəylik nümayiş etdirərək düşmənə çökdürücü zərbə vurmaları Heydər Əliyevin Azərbaycançılıq məfkurəsinin təzahürünün bir təntənəsi idi. Dünya Azərbaycanlılarının 5-ci Qurultayının 22 apreldə Şuşa şəhərində keçirilməsi, Şuşanın ölkəmizdə və dünyada bütün azərbaycanlıların mənəvi paytaxtı olaraq ümummilli birlik rəmzinə çevrilməsi də həmin məfkurənin daha bir təntənəsidir". A.Əliyev bildirib ki, ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsinin praktik təcəssümü olaraq Şuşada Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsinin imzalanmasının 2021-ci ilin 15 iyun Qurtuluş Günündə baş verməsi Qurtuluş Günündə bayrama bayram qatır. Şuşa Bəyannaməsi Qurtuluşumuzun məntiqi nəticəsi və onun əbədiliyinin daha bir zəmanətidir.



**Fəzail İbrahimli,**
Milli Məclis sədrinin müavini

■ **Bu fikirləri hafta.az-a Milli Məclis sədrinin müavini Fəzail İbrahimli deyib. Onun sözlərinə görə, ilk növbədə diqqət daxili problemlərin həllinə yönəldi. Ölkədə nizam-intizam yaradıldı.** Nizamın pozulmasına yönələn bütün qəsdlərin qarşısı alındı, hakimiyyət gücləndi və nəhayət, Azərbaycan 1994-cü ildə dünya ölkələri tarixində "Əsrin müqaviləsi" deyilən bir layihəyə imza atdı. Bununla da bugünkü taleyimizə imza atmış olduq:

"Əsrin müqaviləsi" dövlətimizin əbədi olmasına iqtisadi zamin idi. Xalqımız Ulu Öndərin rəhbərliyi altında yenidən müstəillik taleyini yaşadı. Ulu Öndər ikinci gəlişi ilə Azərbaycan tarixində yeni bir mərhələnin başlanğıcını qoydu. Deyim ki, sovet hakimiyəti dövründə ölkə, xalq üçün çox qüdrətli addımlar atan Ulu Öndər imperiyanın ən yüksək eşalonunda təmsil olunanda da xalqı, dövləti imperiya içərisində inkişaf etmiş bir dövlətə çevirdi. H.Əliyev müstəqilliyə doğru gedən yolun bünövrəsini qoydu, daxildəki o çaxnaşmanı, özfəaliyyət quldur dəstələrinin hamısını məhv etdi. Həmin zaman Azərbaycan vətəndaş müharibəsi ərəfəsində idi. Ulu Öndər bunun qarşısını aldı.

Ulu Öndərin siyasətini davam etdirən, qalib sərkərdə, Ali Baş Komandan cənab İlham Əliyev dünyasını dəyişən zaman ürəyində apardığı bir nisgili də bu xalqa qaytardı. Onun ruhunu şad etdi. Bu da Qarabağ problemi idi və Şuşanın azad olunmasından sonra, "Ata, vəsiyyətini yerinə yetirdim" deyimi ilə tam ifadə olundu. Heydər Əliyevin dediyi "İlhama özüm qədər inanıram, o, bundansonrakı qalan problemləri həll edəcək" - sözləri öz yerini aldı.

Azərbaycan dünyaya yeni simada təqdim olunub. Cənab Prezident Azərbaycanı məğlub dövlətdən qalib bir dövlətə, məğlub millətdən qalib millətə çevirməklə Ulu Öndərin ruhunu şad etdi, bu millətin qürurunu özünə qaytardı...".



**Mətin Məmmədli,**
siyasi analitik

■ **Siyasi analitik Mətin Məmmədli hafta.az-a həm Qurtuluş Günü, həm də Şuşa Bəyannaməsinin əhəmiyyətini qeyd edərək, bugünün Azərbaycan tarixində özünəməxsus təqvimlərdən biri olduğunu bildirib.**

Müqayisələr aparan M.Məmmədli deyir ki, əgər 15 iyunda Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı o zaman həm daxili, həm xarici təhdidlərlə üzləşən ölkəmizi ciddi təhlükələrdən qoruyub, dövlətçiliyi xilas etdisə, Şuşa Bəyannaməsi iki ölkə arasında strateji müttəfiqlik əlaqələrini ilk dəfə rəsmiləşdirdi.

"Azərbaycan və Türkiyə rəsmi strateji müttəfiqlik kimi xarakterizə olunmuşdu. Hər iki ölkə arasında imzalanmış bu strateji müttəfiqlik həm Türkiyənin, həm Azərbaycanın həyati milli maraqlarına xidmət edir.

Şuşa Bəyannaməsi ölkəmizin təhlükəsizliyinin qorunmasında böyük əhəmiyyət daşıyır, eyni zamanda, bütövlükdə Cənubi Qafqaz regionunda davamlı sülhə xidmət edir. Bu baxımdan, Şuşa Bəyannaməsinin imzalanmasını, eyni zamanda, Qurtuluş Günü ilə əlaqələndirmək olar.

"Heydər Əliyev müasir Azərbaycan tarixində müstəsna rolu olan şəxsiyyətdir. Azərbaycan tarixinin 40 ili onun adı ilə bağlıdır.Ulu öndər xalqımızın tarixinə Azərbaycanla bağlı gördüyü işlərlə böyük qurucu şəxsiyyət və xilaskar kimi düşmüşdür. Ulu Öndər böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bununla da 15 iyun tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Azərbaycan Respublikasının Milli Məclis 1997-ci ilin iyununda bu günü bayram elan edildi".



**Sübhan Talıblı,**
AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru

■ **Bu barədə hafta.az-a AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Sübhan Talıblı bildirib.** S.Talıblı tarixi faktlara istinadla bildirib ki, 1993-cü ilin may-iyun aylarında hökumət böhranının son dərəcə kəskinləşməsi nəticəsində ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsinin yarandığını bir vaxtda, xalq tərəfindən Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi irəli sürülüb.

"Zənnimcə, Heydər Əliyevin müəyyən dövr ərzində hakimiyyətdə olması özünü açıq-aydın biruzə verirdi. Ulu öndərin Azərbaycanı regional və beynəxalq güclərin əlindın qurtararaq, müstəqil və suveren Azərbaycan Respublikası quraraq bizlərə əmanət etdi. Bu gün bu siyasət Heydər Əliyevin ictimai-siyasi və dövlətçilik təcrübəsindən yararlanan Azərbaycan Prezidenti və ali baş komandan İlham Heydər oğlu Əliyev tərəfindən uğurla və yüksək peşəkarlıqla davam etdirilir. Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində Azərbaycan ərazi bütövlyünü təmin etdi.

Tarixdə bu günə kimi beynəlxalq və regional güclərin dəstəyilə ilə olduqları hər yerdə qarət, terror, soyqırım, cinayətkarlıqla məşğul olan ermənilər hesab edirdilər ki, Azərbaycan xalqının haqqını əlindən almaq olar. Amma anlamadılar ki, Azərbaycan xalqının böyük oğlu dərin zəkaya, geniş siyasi təcrübəyə malik olan Heydər Əliyevlə siyasi oyun və s. hiylələrlə qalib gəlmək olmaz. Nə qədər çirkin addımlar atsalar da, buna nail ola bilmədilər. Çünki ulu öndər hər zaman atdığı addımlarda haqlı idi, həm də proseslərə dərin bələd olan dünya səviyyəli siyasi xadim idi.

Eyni zamanda, Heydər Əliyev xalqından dəstək alırdı, xalq da onu dəstəkləyirdi. İstər Azərbaycanda, istərsə xaricdə olarkən çalışdığı bütün məqamlarda həmişə Azərbaycan maraqlarına uyğun xidmət edib. Bütün bunları uzaqgörənliklə və prakitiki addımlarla reallaşdırırdı".

S.Talıblı qeyd edib ki, Azərbaycanın o dövrdəki rəhbərliyinin Heydər Əliyevi Bakıya dəvət etməsi, xalqın da bunu tələb etməsi mühüm tarixi hadisə idi.

"Tanrı tərəfindən Azərbaycan xalqına xilaskar kimi göndərilmiş ulu öndər Heydər Əliyev 1993-cü ilin İyun hadisələrindən sonra xalqın istəyi ilə hakimiyyətə gətirildi. Nəticədə, Azərbaycan 1918-ci ildə böyük bir komandanın xalqımıza bəxş etdiyi azadlıq, müstəqillik tarixi Heydər Əliyevin timsalında yenidən davam etdirildi".

✍ ***Tahirə Qafarlı***

# ŞUŞA BƏYANNAMƏSİ

# tarixi zərurətdən doğan müttəfiqlik

***Şuşa Bəyannaməsinin imzalanmasından tam 1 il ötür. Ötən il iyun ayının 15-də Azərbaycanın mədəniyyət paytaxtı, xalqımızın tarixən qəhrəmanlıq rəmzi olan Şuşa şəhərində Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan iki qardaş ölkə arasında, el diliylə desək, müttəfiqlik sənədini imzaladılar. Bunununla da Prezident İlham Əliyevin də dediyi kimi, iki qardaş ölkənin münasibətləri rəsmən müttəfiqlik səviyyəsinə yüksəldi.***



## Təhlil

### Mənəvi müttəfiqlik

**Ümumiyyətlə, Şuşa Bəyannaməsi iki qardaş dövlət arasında hərbi, müdafiə sənayesi texnologiyaları, enerji, nəqliyyat, iqtisadi, humanitar və sair sahələrdə əlaqələrin gələcəyi üçün yol xəritəsi təqdim edir.** Bu yerdə qeyd edək ki, müttəfiqlik sadəcə dövlətlər səviyyəsində deyil, xalqlar arasında da olur və bunun tarixdə bir çox örnəkləri mövcuddur. Türkiyə - Azərbaycan münasibətlərindən söz düşmüşkən, məsələn, ötən əsrin əvvəllərində Azərbaycan xalqını erməni-daşnak silahlılarının qırğınından qurtarmaq üçün ölkəmizə yardıma gələn türk ordusunun minlərlə əsgəri məhz Azərbaycan xalqı uğrunda canlarını fəda edib, şəhidlik zirvəsinə yüksəliblər. Eləcə də Çanaqqala savaşı zamanı Azərbaycan türkləri müttəfiq qüvvələrinin qarşısında mətanətlə dayanmışdılar və onların məzarları indi də bu torpaqlardadır. Hətta eşitdiyimizə görə, o vaxt nənə-babalarımız pullarını, qır-qızıllarını toplayaraq, Çanaqqala müharibəsində savaşan türk ordusuna yardım göndəriblər. Biz bu kimi misalları çox çəkə bilərik. İki dövlətin münasibətlərinin möhkəm olması üçün məhz xalqlar arasında bağların güclü olmasının rolu əvəzsizdir.

Şuşa Bəyannaməsinin bir özəlliyi də ondadır ki, bu sənəd 1921-ci ildə bağlanmış tarixi əhəmiyyətli Qars müqaviləsinin 100 illiyində rəsmiləşib və əslində həmin sazişin yeni versiyada davamıdır.

Bəyannamənin məhz Şuşa şəhərində imzalanması həm də dünyaya ismarışdır. Bir anlıq xatırlayaq: iki dövlət başçısı sənədi imzalamaq üçün elə bir yer seçmişdilər ki, arxa fonda erməni vandalların dağıtdığı tarixi tikilinin xarabalıqları görünürdü. Deməli, sənəd ötən əsrin əvvəlində olduğu kimi, bu gün də məhz erməni vandalizminin və onlara dəstək verən xain xislətli ölkələrin gizli və ya açıq təhlükəsinə qarşı dirənişdən yarandığı ortaya çıxıb. Bu sənədi imzalamaqla, iki qardaş ölkə dünyaya belə bir ismarıc göndərdi ki, daha 100 il əvvəl deyil, bu gün istənilən təxribatın qarşısında iki dövlət bir vəhdət olaraq dayanacaq.




### Bəyannamənin mahiyyəti

**Şuşa Bəyannaməsinin imzalanması yalnız Türkiyə - Azərbaycan əlaqələri üçün deyil, eyni zamanda bütün türk dünyasının birliyi üçün önəmlidir.** Qəribə deyil ki, tarixboyu İran şahları Azərbaycana və Qafqaza hücum zamanı ilk növbədə məhz Şuşanı ələ keçirməyə cəhd ediblər və hətta bu istəyə çatmaq üçün onlar qalanı aylarla mühasirədə saxlayırdılar, eynilə ermənilər də belə ediblər. Hər iki qəsbkara aydın idi ki, Şuşa strateji baxımdan bölgənin açarıdır, kim ona sahib olacaqsa, Qarabağa və bütün Qafqaza nəzarət edəcək.

Ümumiyyətlə, Şuşa öz tarixi boyunca həmişə yadellilərə qarşı direniş məkanı olduğundan türk milli-mənəvi şüurunda özünəməxsus yer tutub. Eləcə də milli musiqinin beşiyi olan bu qəhrəman şəhər türk dünyasının mədəniyyət paytaxtı olaraq bəşəri mədəniyyətə töhfədir. Elə bu səbəbdən, Bəyannamənin imzalanması mərasimində, hər iki dövlət başçısının çıxşında görüşün "Azərbaycanın və bütövlükdə türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində keçirilməsinin tarixi əhəmiyyəti" xüsusi vurğulanıb, üstəlik Türkiyənin bu şəhərdə konsulluq açma qərarı da elan olunub.

Bu Bəyannamənin əhəmiyyətini anlamaq üçün Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı "müttəfiqlik" ifadəsinə diqqət yetirilməlidir. Heç kimə sirr deyil ki, beynəlxalq münasibətlərdə ittifaq müharibə vəziyyətində iki və ya daha çox dövlət arasında imzalanan rəsmi müdafiə müqaviləsidir. Bu cür sazişlər müdafiə xarakteri daşıyır, tərəflərdən birinə üçüncü dövlət və ya koalisiya tərəfindən hücuma məruz qaldıqda, qüvvələri birləşdirmək məsuliyyətini imzalayan dövlətlərin üzərinə qoyur. Bəyannamədə açıq-aşkar deyilir: "Üçüncü dövlət və ya dövlətlər tərəflərdən hər hansı birinin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, toxunulmazlığı və ya beynəlxalq səviyyədə tanınmış sərhədlərinin təhlükəsizliyi təhlükəyə düşərsə və ya onlara hücum edilərsə, tərəflər birgə məsləhətləşmələr keçirəcək, təhlükə və ya hücumun qarşısını almaq üçün BMT Nizamnaməsinə uyğun olaraq müvafiq təşəbbüslər göstərəcək, bir-birlərinə lazımi köməkliyi göstərəcəklər. Bu yardımın həcmi və forması təxirəsalınmaz danışıqlar yolu ilə müəyyən ediləcək, birgə tədbirlərin görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək, Silahlı Qüvvələrin güc və idarəetmə bölmələrinin koordinasiyalı fəaliyyəti təmin olunacaq...".

Əslində, yuxarıda qeyd etdiyimiz fikirdə qalırıq ki, Azərbaycanla Türkiyə əvvəldən əzəli müttəfiqdirlər, bu Bəyannamə ilə sadəcə münasibətlər rəsmiləşib. Heç kimə sirr deyil ki, 44 günlük Vətən müharibəsi sözügedən bəyannamədən bir il öncə baş verib. Hansı ki, prezident İlham Əliyev "44 günlük Vətən müharibəsində Türkiyənin dəstəyi olmasaydı, müdaxilə etmək istəyənlər çox olardı" deməklə həm əzəli müttəfiqliyimizin mövcudluğuna işarə edib, həm də haqqında söz açdığımız Şuşa bəyannaməsinin rəsmiləşdirilməsinin zəruri olduğunu diqqətə çatdırıb. Yuxarıda da qeyd etdiyimiz kimi, Şuşa Bəyannaməsinə əsasən iki ölkə arasında yaranan rəsmi müttəfiqlik sırf müdafiə məqsədi daşıyır və heç də üçüncü tərəfə qarşı deyil. Tərəflər milli maraq kəsb edən regional və qlobal məsələləri müzakirə etmək üçün təhlükəsizlik şuraları səviyyəsində birgə görüşlər keçirməyə razılaşıblar. 2007-ci ildən etibarən Yüksəksəviyyəli Hərbi Şurada müzakirələr aparılırdı və həmin şuralara müdafiə nazirlərinin müavinləri rəhbərlik edirdi. İndi bu toplantılar dövlət başçılarının rəhbərlik etdiyi təhlükəsizlik şurasının birgə iclasları səviyyəsinə qaldırılıb.

### İqtisadi amillər

**İkitərəfli əlaqələr baxımından ən diqqət çəkən məsələlərdən biri müdafiə sənayesi texnologiyaları sahəsində əməkdaşlığın artırılmasıdır. Prezident Ərdoğan bununla bağlı bildirdi ki, Türkiyə texnologiya sahəsində biliklərini Azərbaycanla paylaşacaq və ortaq istehsal sahələri yaradacaq. Yəni bu layihənin reallaşması ilə Azərbaycan hərbi texnologiya idxal edən dövlətdən istehsal mərkəzinə çevriləcək.**

Hə, elə bu yaxınlarda Bakıda keçirilmiş "Texnofest"də Prezident Ərdoğan bəyan elədi ki, Türkiyə və Azərbaycan kosmik proqramları birlikdə işləyəcəklər. Yəni Şuşa bəyannaməsində qeyd olunmuş öhdəliklər nəinki kağız üzərində qalmadan həyata keçirilir, hətta daha da inkişaf etdirilir. Bunun bir nümunəsi də Prezident İlham Əliyevin söylədiyi kimi, "Azərbaycanın kiçik türk ordusu modelini" yaratmağa başlamasıdır. Tərəflər iki qardaş ölkənin silahlı qüvvələrinin dövrün tələblərinə uyğun yenidən qurulması və modernləşdirilməsi üçün birgə səy göstərirlər.

Şuşa Bəyannaməsində qeyd olunan maddələrdən biri də iki ölkənin regionda əməkdaşlıq baxımından gündəmdə saxladığı nəqliyyat dəhlizidir. İkitərəfli əməkdaşlıq nəticəsində Bakı-Tiflis-Qarsın başa çatdırılması regionda yeni əməkdaşlıq imkanları açıb. Orta Asiya, Azərbaycan və Türkiyə arasında olan, Türk Şurasının dəstəklədiyi Mərkəzi Dəhliz də Şuşa bəyannaməsinə daxil edilib. Bundan başqa, İkinci Qarabağ müharibəsindən sonra iki qardaş ölkə arasında yeni dəhliz imkanı yaranıb. Azərbaycanla Türkiyəni birləşdirəcək Zəngəzur dəhlizinin əhəmiyyətini vurğulamaqla bu siyasətlərin əslində uzunmüddətli olduğu ortaya çıxıb.

Ötən il martın 1-dən etibarən güzəştli ticarət müqaviləsini qüvvəyə mindirən tərəflər Şuşa bəyannaməsi ilə azad ticarət müqaviləsinə doğru addım atıblar. Bununla bağlı bəyannamədə Türkiyə və Azərbaycan məhsullarının sərbəst hərəkətini təmin etmək üçün lazımi mexanizmlərin yaradılması istiqamətində addımların atılması qərara alınıb. Ötən il aprelin 1-dən iki ölkə vətəndaşlarının şəxsiyyət vəsiqəsi ilə gediş-gəlişi başlayıb. Şuşa bəyannaməsi ilə isə vətəndaşlara öz ölkələrində qarşılıqlı yaşama mexanizmlərinin asanlaşdırılması qərara alınıb.

### Yeni reallıqlar

**Qardaş ölkələrimiz İkinci Qarabağ müharibəsindən sonra yeni geosiyasi reallıq yarada biliblər. Hər iki dövlətin regionda həyata keçirdiyi enerji və nəqliyyat layihələri geosiyasi tarazlığın öz xeyrinə dəyişməsinə səbəb olduğundan bu sahədə təcrübələri var.** Silahlanmadan və regional münaqişədən qaçan hər iki dövlət regional güc proqnozlarında əməkdaşlıq və layihəyönümlü araşdırmaların ön plana çıxdığını düşünür. Regional əməkdaşlıq həm də regional sabitliyə, iqtisadi inkişafa və rifaha xidmət edir. Bu səbəbdən müttəfiqlik bəyannaməsində regional əməkdaşlıq təklifləri də irəli sürülüb.

Həm liderlərin bəyanatlarında, həm də bəyannamənin məzmununda müttəfiq dövlətlər üçün regional əməkdaşlığın əhəmiyyətini görmək mümkündür. Bu mənada Prezident Ərdoğan Türkiyə ilə Azərbaycanın ortaq təklifi olan altı hissədən ibarət regional əməkdaşlıq platformasını gündəmə gətirib, hətta Ermənistanın müsbət addım atacağı təqdirdə diplomatik əlaqələrin qurulması və sərhədlərin açılması ilə bağlı müsbət mesajlar verib.

Əslində, Prezident Ərdoğanın "münasibətlərimizin gələcəyi üçün yol xəritəsi" olaraq xarakterizə etdiyi bu bəyannamə, ölkələrimizin İkinci Qarabağ müharibəsindən sonra, xüsusilə də bütün sahələrdə imkanları birləşdirərək fəaliyyətlərini davam etdirmək səylərinin davamıdır. Şuşa Bəyannaməsinə qədər tərəflər arasında imzalanmış sazişləri araşdırdıqda qarşıya qoyulan hədəflərə nail olunduğunu görmək olar. Bu mənada, Şuşa bəyannaməsindəki hədəflərin zamanla reallaşacağını proqnozlaşdırmaq mümkündür. Müttəfiq dövlətlər regional əməkdaşlığa açıq olduqlarını, eyni zamanda təhdidləri cavabsız qoymayacaqlarını açıqlayıblar. Yəni onlar regional səmərəliliyin artırılması üçün birgə fəaliyyət göstərəcəklərini bəyan ediblər...

*Vüsal Tağıbəyli*

## Gündəm



# Bir yaşlı Şuşa Bəyannaməsi

əvvəli 1-ci səhifədə

■ **Elxan Şıxəliyev, hərbi ekspert:**

...Biz növbəti 10 illiklərdə təhlükəsizliyimizi Şuşa Bəyannaməsinin çətiri altında asanlıqla təmin edəcəyik. Azərbaycanın sərhədlərinə qarşı qeyri-adekvat addım atanların qarşısında Türkiyəni görəcəyini bilirik. Türkiyə NATO-nun üzvüdür və bu ittifaqın 2-ci ən böyük ordusuna sahibdir və silahlı qüvvələri dünyanın ən güclü silahlı qüvvələrindən biridir. Şuşa Bəyannaməsi təbii ki, gücümüzə güc qatacaq. Şuşa Bəyannaməsi silahlı qüvvələrimizin Türkiyənin minimodelinə keçidinə işıq salacaq. Eyni zamanda, Türkiyə Silahlı Qüvvələri mənsubları Şuşa Bəyannaməsindən sonra yüksək qərargah səviyyəsində Azərbaycanda təmsil olunurlar. Əslində, onların əsas funksiyası koordinasiya məsələlərini həyata keçirməklə Azərbaycanın Türkiyə modelinə keçidini dəstələməkdən ibarətdir. Şuşa Bəyannaməsi özü-özlüyündə Azərbaycan silahlı qüvvələrinin və Azərbaycanın təhlükəsizliyini yeni mərhələyə çıxartdı. Bu, xüsusən Quru Qoşunları Qərargahının yaranması, quru qoşunlarının birliklərinin tərkibində komanda briqadalarının yaradılması Azərbaycanın hərbi doktrinasının yeni səviyyəyə çıxarılmasıdır. Silahlı Qüvvələrin xüsusi təyinatlılarının, hərbi hava qüvvələrinin də bütün səviyyələrdə Türkiyə ilə bərabər şəkildə beynəlxalq təlimlərdə iştirakı qüvvələrin bərabərləşməsinə, koordinasiya olunmasından xəbər verir. Hələ bizim ərazilərimizdə antiterror əməliyyatlarının keçirilməsi istisna deyil. Ona görə də bütün əlaqəli qruplarımız, komanda qruplarımız, xüsusi təyinatlılarımız, sualtı hücum və sualtı müdafiə qruplarının bu tapşırıqları yerinə yetirəcək səviyyədə beynəlxalq təlimlərdə və yerli təlimlərdə iştirakı təmin olunub.

44 günlük müharibədə qazandığımız zəfərdən və Şuşa Bəyannaməsindən sonrakı mərhələdə Azərbaycan hərbi qüvvələri artıq 4-5 nəsil texnologiya ilə dəstəklənən silahlı qüvvələrə çevrilib. Bu, Şuşa Bəyannaməsi və Türkiyədən aldığımız gücə əsasən davam edəcək. Azərbaycan da qarşılıqlı olaraq Türkiyədə mövcud olan fors-major hallarında hər zaman Türkiyənin yanında olub və olacaqdır. Şuşa Bəyannaməsi bizə dost olan, yaxud olmayan ölkələrə mesajdır. Bu sənəd xüsusən Ermənistanın radikal millətçi qruplarının revanşist xəyallarının xülya olduğunu göstərir. Şuşada görüşlərin keçirilməsi, bəyanatlar verilməsi o deməkdir ki, düşmənin heç bir şansı yoxdur. Azərbaycan və Türkiyənin yolu gələcəkdə bərabər yürüməkdən keçir.

■ **Aydın Quliyev, siyasi şərhçi:**

...Bəyannamədə də əks olunduğu kimi, iki ölkənin hərbi-sənaye texnologiyalarının birləşdirilməsi istiqamətində Şuşa Bəyannaməsi böyük perspektivlər açır. Hazırda Azərbaycanın qarşısında daha çox inkişaf etmiş, geniş potensiala malik Türkiyənin hərbi sənaye imkanlarından istifadə etmək imkanları yaranıb.

Düzdür, Azərbaycanın özünün də hərbi-sənaye industriyası artıq mövcuddur. 1200-dən artıq hərbi-sənaye malları Azərbaycanın özü tərəfindən istehsal olunur. Texnoloji baxımdan Türkiyənin imkanlarının daha geniş olduğunu nəzərə alsaq, Azərbaycanla Türkiyə arasında hərbi texnoloji sahədə yeni mərhələ başlayıb. Pilotsuz uçuş aparatlarının birgə istehsalının təşkili və onun daha da genişləndirilməsi məhz Şuşa Bəyannaməsindən sonra iki ölkənin arasında açılmış çox böyük perspektivdir. Bundan başqa, Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyənin güc strukturlarının koordinasiyası sahəsində çox böyük imkanlar açıb.

Ekspertlər gələcəkdə Türkiyə ilə Azərbaycanın qarşılıqlı hərbi yardım, hərbi müttəfiqlik sazişinin mümkün olacağından danışır. Gələcəkdə Azərbaycanın Türkiyə ilə birgə hərbi bazalarının yaradılması da mümkündür. Hər iki ölkənin bu gün rastlaşdığı təhlükəsizlik təhdidləri eynidir. Azərbaycanın da müstəqilliyini və ərazi bütövlüyünü təhdid edən məqamlar var. Belə şəraitdə müvafiq güc və diplomatik orqanların koordinasiya olunmasına çox ciddi ehtiyac var. Şuşa Bəyannaməsi iki ölkə təcavüzə qalacaqları halda birgə müdafiə tədbirlərinin çərçivəsinin müəyyənləşdirilməsi, BMT nizamnaməsinə uyğun olaraq birgə addımların atılmasını mümkün edir.

Şuşa Bəyannaməsi Qars müqaviləsi kimi iki ölkənin ali siyasi rəhbərliyi tərəfindən təsdiqlənib. Şuşa Bəyannaməsi də 2022-ci ilin yanvar ayında bir gün fərqi ilə Azərbaycan və Türkiyənin ali siyasi rəhbərlikləri və parlamentləri tərəfindən qanun statusuna düşüb. Şuşa Bəyannaməsində Naxçıvanın xüsusi coğrafiya kimi əks olunmasının ayrıca bir mənası var. Bu o deməkdir ki, Şuşa Bəyannaməsinin imzalanması həm Azərbaycanın ərazi bütövlüyünə, birgə hərbi təhlükəsizlik təminatının yaradılması yolunda yeni bir mərhələ açdı, həm də müxtəlif ərazilərimizin, regionların eləcə də Naxçıvanın imkanlarının iki ölkə arasında tranzit ölkəyə çevrilməsini gerçəkləşdirdi.

Şuşa Bəyannaməsində Azərbaycanın qərbi ilə Naxçıvanı birləşdirən dəmir yolu və avtomobil yolunun çəkilməsinin bir daha təsbit olunması o deməkdir ki, Azərbaycan Türkiyə Şuşa Bəyannaməsi ilə ümumtürk inteqarsiyasının təsbit olunmasını yeni bir mərhələyə çıxartdılar. Şuşa Bəyannaməsinin açdığı imkanlar əsasında gələcəkdə türk dövlətlərinin ümuminteqrasiyası inkişaf edərək yeni ümumtürk beynəlxalq təşkilatların, hətta ümumtürk hərbi təşkilatların da yaranmasına gətirib çıxarda bilər.

■ **Hasan Oktay, Türkiyənin Qafqaz trateji Araşdırmalar Mərkəzinin (QAFSAM) rəhbəri:**

...Moskva müqaviləsindəki çatışmazlıqları tamamlamaq və Azərbaycanın təhlükəsizliyini təmin etmək məqsədilə bağlanmış Şuşa müqaviləsinə görə, tərəflərdən hər hansı birinə qarşı hücum olarsa, qarşı tərəf bu hücumu dəf etməyə kömək edəcək. Şuşa Bəyannaməsinin iki ölkə arasındakı münasibətləri "müttəfiqlik" səviyyəsinə yüksəltməsi tarixi əhəmiyyət kəsb edir. Bu, iki ölkə arasında münasibətlərdə yeni vəziyyətdir. Beynəlxalq müqavilənin imzalanması tərəflərin müqaviləyə uyğun hərəkət etmək öhdəliyini önə çıxarır.

> “
>
> *Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyənin güc strukturlarının koordinasiyası sahəsində çox böyük imkanlar açıb*
>
> *Azərbaycan türk dünyasının birliyi üçün mənəvi körpü olmağa iddialıdır*
>
> *Türkiyə Şuşa Bəyannaməsi ilə Cənubi Qafqazın təhlükəsizliyinin qarantı oldu*

Bu öhdəliyin pozulması dövlətin məsuliyyətinə səbəb olur. Bu baxımdan gələcəkdə Türkiyədə və ya Azərbaycanda hakimiyyət dəyişikliyi olsa belə, Şuşa Bəyannaməsi ilə verilən "müttəfiqlik" statusu davam edəcək. Əks halda dövlətlər buna görə məsuliyyət daşıyır. Ona görə də Şuşa Bəyannaməsi həm də iki qabaqcıl ölkə arasında yaxşı münasibətlərin qorunub saxlanmasında "dəstəkləyici güc" xarakteri daşıyır.

Beynəlxalq hüquq baxımından beynəlxalq müqavilənin imzalanması onun məcburi qüvvəyə malik olması demək deyil.

Bu kontekstdə beynəlxalq müqavilənin məcburi olması üçün daxili və beynəlxalq hüquq baxımından bəzi addımlar atılmalıdır. Daxili qanunvericilik baxımından dövlətlərin bu prosedurları istədikləri kimi seçmək azadlığı var.

Beynəlxalq müqavilənin Azərbaycan və Türkiyənin daxili qanunvericiliyində məcburi qüvvəyə malik olması üçün o, onların parlamentləri tərəfindən ratifikasiya edilməlidir. Onların qüvvəyə minməsi üçün prezident tərəfindən imzalanmalıdır. Bu kontekstdə Şuşa Bəyannaməsi hər iki ölkənin parlamentləri tərəfindən təsdiq edilib və hər iki ölkənin prezidentləri tərəfindən imzalanıb və qüvvəyə minib. Ona görə də Şuşa Bəyannaməsi beynəlxalq hüququn tələb etdiyi bütün şərtləri yerinə yetirən və hər iki dövlət üçün məcburi qüvvəyə malik olan qüvvəyə minmiş müqavilədir.

Buna görə də, bu Müqavilənin imzalanması ilə iştirakçı dövlətlər müqavilə öhdəliklərini yerinə yetirmək kontekstində öhdəlik götürdülər.

Şuşa Bəyannaməsinin Türkiyə üçün ən mühüm xüsusiyyəti Türkiyənin Cənubi Qafqazdakı rolunun ilk dəfə beynəlxalq müqavilə ilə daha qabarıq şəkildə ortaya çıxmasıdır. Xüsusilə Şuşa Bəyannaməsində özünümüdafiə hüququ və təhlükəsizliklə bağlı digər müddəalar Türkiyəni Cənubi Qafqazın təhlükəsizliyi üçün mühüm ölkəyə çevirmişdir. Ona görə də Türkiyə Şuşa Bəyannaməsi ilə Cənubi Qafqazın təhlükəsizliyinin, bir növ, qarantı oldu.

■ **Zəlimxan Məmmədli, siyasi şərhçi:**

- Azərbaycanın yerləşdiyi coğrafiya və dövlət olaraq tarixi missiyası heç bir qonşu dövlətlə müqayisə oluna bilməz. İran və Rusiya kimi aqressiv, şovinist qonşularımız, onların himayə etdiyi təcavüzkar Ermənistan Azərbaycanın tarixi missiyasını əngəlləyən düşmən cinahlarıdır. Azərbaycan Türk Dünyasının birliyi üçün mənəvi körpü olmağa iddialıdır. Çox şanslıyıq ki, bu regionda güclü və tarixi missiyamıza qarant olan Türkiyə var. Türkiyə həm də güclü Türkiyədir. Bu baxımdan, Azərbaycanı düşmən cinahlardan qoruyan bir güc mərkəzi ilə ciddi əməkdaşlığa ehtiyac var idi. Unudulmamalıdır ki, Azərbaycanın dövlət olaraq var olmasında hələ keçən əsrin əvvəllərində Türkiyə tarixi rol oynamışdır. Bakını rus-erməni işğalından Nuru Paşanın rəhbərliyi ilə Türkiyənin Qafqaz İslam Ordusu azad etmişdir. Odur ki, Şuşa Bəyannaməsi Azərbaycan dövlətçiliyini mənfur qonşulardan qoruyan, Beynəlxalq hüquqdan qaynaqlanan hüquqi sənəddir. Şuşa Bəyannaməsi həm də Azərbaycanın tarixi bütövlük, demokratiya, türk dünyasının birliyi kimi ideallarına işıq salan sənəddir. Eyni zamanda, Gürcüstan kimi region dövlətlərinə buxovlardan qurtulmaq üçün şans verən, hətta Ermənistanı Rus əsarətindən azad etməyə, regionun iqtisadi, humanitar, kommunikasiya sahələrində gəlişməsinə dəstək verən tarixi sənəddir.

Şuşa Bəyannaməsinin icra mexanizmi haqqında yaranmış tarixi geosiyasi şərtlərə uyğun addımlar atılmaqdadır. 15 iyunda Şuşada Türkiyə və Azərbaycanın böyük heyətlərlə Bəyannamənin ildönümünü keçirmək üçün məkanın seçilməsi də təsadüfi deyildir.

Şuşada Türkiyə Konsulluğunun açılması və hərbi əməkdaşlığın daha dərinləşdirilməsi istiqamətində addımlar atılması ehtimalı daha çoxdur. Tarixin, geosiyasi durumun türk birliyinin xeyrinə işlədiyi düşüncəsindəyəm. Bu güc Rusiyanın Qafqazdan tamamilə sıxışdırılmasına gətirib çıxara bilər. Şuşa Bəyannaməsi qarşılıqlı olaraq hər iki dövlətin güvənliyi, Türk Dövlətləri Təşkilatının daha dinamik bir mexanizminə çevrilməsi, o cümlədən Türkiyə-Azərbaycan mərkəzli yeni siyasi çəkili güc mərkəzinin yaranmasına hüquqi əsas verən sənəddir.

*Tahirə*

# Qarabağa aparan yeni yollar

**Hazırda bu istiqamətdə infrastruktur layihələri uğurla icra olunur**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

## Layihə



***Bu gün işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi, Qarabağa "Böyük Qayıdış"ın reallaşması üçün çox böyük layihələr sürətlə gerçəkləşdirilir. Hazırda sözügedən ərazilərdə çoxsaylı infrastruktur layihələri icra olunur, körpülər, yollar, stansiyalar tikilir, yaşayış massivləri salınır, hava limanları inşa edilir. Təbii ki, işğaldan azad olunan ərazilərdə tikinti quruculuq işlərinin aparılması üçün ilk növbədə yolların yenidən çəkilməsi, körpü və tunellərin tikintisi xüsusi əhəmiyyət daşıdığı üçün Prezident İlham Əliyevin tapşırığına əsasən müasir yol infrastrukturunun yenidən qurulması istiqamətində genişmiqyaslı tikinti işləri həyata keçirilir.***

Prezidentin imzalad□ığı müvafiq sərəncam□larla bu ərazilərdə çoxlu sayda avtomobil yollarının inşasına böyük həcmdə maliy□yə vəsaitləri ayrılı□b və görülən işlərin icrası daha da sürətləndirilib. Aparılan sürətli işlərin nəticəsidir ki, qələbəmizin simvolu sayılan "Zəfər Yolu"nun tikintisi cəmi bir ilə başa çatdırılıb və yol ötən ildən artıq istifadədir. Başlanğıcını Hacıqab□ul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan gö□türən 101 kilometrlik "Zəfər yolu" Şuşa şə□hərinə qədər uzanır. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonl□arının ərazisindən keçməklə inşa edilən "Zəfər yolu" Füzuli və Şuşa şəhərləri də daxil olmaqla bu ra□yonların onlarla yaş□ayış məntəqəsini əha□tə edir.

### Horadiz-Ağbənd avtomobil yolunun 35 faizi inşa olunub

**Zəngəzur dəhlizini formalaşdıran və strateji yollardan biri hesab olunan Horadiz-Ağbənd avtomobil yolunun inşası istiqamətində işlər də sürətlə davam etdirilməkdədir. Artıq yolun 35 faizinin, dəmiryolunun isə 50 faizinin inşası yekunlaşıb. Bunu rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov deyib.**

Nazir müavini əlavə edib ki, Azərbaycanın Qərb regionları ilə Naxçıvanı birləşdirəcək dəmiryolu xəttinin inşası üzrə danışıqlar hazırda davam edir: "Uzun illər işğal altında olan torpaqlar azad olunduqdan dərhal sonra ölkə başçısının qərarlarına əsasən regionda böyük bərpa, quruculuq işlərinə start verilib. Bu layihələrdən ən çox əhəmiyyət verilənlərdən biri də məhz Zəngəzur dəhlizini formalaşdıran Horadiz-Ağbənd avtomobil yolu və ona paralel olaraq inşa olunan dəmir yolu xəttidir. Hazırda Horadiz-Ağbənd avtomobil yolu üzrə inşaat işləri sürətlə davam edir. Fiziki tamamlanma işləri hazırda 35 faizin üzərinə qalxıb və işlərin 2024-cü ilin birinci yarısında başa çatdırılması planlaşdırılır".R.Hümmətov bildirib ki, avtomobil yoluna paralel olaraq inşa olunan dəmiryolunun ümumi uzunluğu 110,4 km təşkil etməklə 2023-cü ilin sonunadək başa çatdırılması planlaşdırılır: "Belə ki, yol üzrə artıq 50 faiz işlər tam icra olunub. Bildiyimiz kimi, bu Azərbaycan ərazisində Zəngəzur dəhlizinin formalaşdırılması üzrə əsas, ana arteriyanı təşkil edir. Ancaq bununla bərabər 10 noyabr 2020-ci il tarixli liderlər bəyanatına uyğun olaraq Azərbaycanın Qərb regionları ilə Naxçıvanı birləşdirəcək dəmiryolu xəttinin inşası üzrə danışıqlar hazırda davam edir və ümid edirik ki, yaxın vaxtlarda bu da öz müsbət nəticəsini verəcək və inşasına başlanacaq. Beləliklə Zəngəzur dəhlizi tamamən tamamlanmış olacaq".

*"Bu yollarda hərəkətin daha rahat və sadələşdirilmiş şəkildə təşkili üçün ağıllı yol infrastrukturu səviyyəsində qurulması da gözlənilir*



**Eldəniz Cəfərli,**
nəqliyyat sahəsi üzrə ekspert

### Cari ildə hansı yollar istifadəyə veriləcək?

**Qeyd edək ki, dövlət büdcəsindən ayrılan vəsait hesabı□na hazırda işğaldan azad olunan ərazilər□də daha 15 avtomobi yolunun tikintisi hə□yata keçirilir. Bunlardan biri Füzul□i-Hadrut avtomobil yoludur.**

Avtomobil yolunun uzunluğu 12 kilometrdir. I texniki dərəcəli bu yol başlanğıcını "Zəfər Yolu"ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir. Füzuli-Hadrut avtomobil yolu 4 hərəkət zolaqlı olacaq. Hərəkət zolaqlarına uyğun olaraq yol yatağının eni müvafiq olaraq 21 metr, yolun hərəkət hissəsinin eni isə 14 metr təşkil edəcək. Avtomobil yolunda hazırda torpaq işlərinin icrası davam etdirilir. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yolun genişləndirilərək profilə salınması və I texniki dərəcəyə uyğun yeni torpaq yatağının inşası həyata keçirilir.

Füzuli-Hadrut avtomobil yolunda torpaq yatağının inşası ilə yanaşı yolboyu atmosfer suların ötürülməsini təmin etmək məqsədi ilə müxtəlif diametlərə malik suötürücü boruların, həmçinin dərə sularının ötürülməsi üçün 1 dördbucaqlı su keçidinin tikintisi də layihə üzrə aparılır. Bundan başqa yolun 6.7 kilometrində, "Qarğabazarı" adlanan ərazidən keçən hissəsində iki aşırımlı avtomobil körpüsünün svay üçün hazırlıq prosesi aparılmaqla tikintisi davam etdirilir.

Tikinti işləri "İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında həyata keçirilir. Tikintinin tərtib olunmuş qrafikə uyğun cari ilin sonunadək yekunlaşdırılması üçün əraziyə lazımi sayda qüvvə cəlb edilib. Füzuli-Hadrut avtomobil yolu işğaldan azad edilmiş Füzuli və Xocavənd rayonlarının ərazisindən keçir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın 2021-ci il oktyabrın 17-də Füzuli rayonuna səfəri zamanı təməli qoyulan Ağdam-Füzuli avtomobil yolunun inşası da sürətlə davam edir. Sözügedən yol Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrindən biri sayılır.

Uzunluğu 64.8 km, hərəkət hissəsinin eni 15 metr təşkil edəcək yol 4 hərəkət zolaqlı olmaqla tikilir. Yol çiyinlərinin hər bir istiqamətdə 3.75 metr, ayırıcı zolağın eni 2 metr olmaqla yol yatağının eni 26.5 metr təşkil edir. I texniki dərəcəli yolda layihə üzrə 380 metr istinad divarının inşası da aparılır.

Hazırda Ağdam-Füzuli avtomobil yolunda torpaq işlərinin icrası yararsız qruntun çıxarılması, genişləndirmə işləri icra olunur, 26.5 metr enində yeni yol yatağının, yol yatağı hazır olan hissələrdə yol əsasının tikintisi, həmçinin kommunikasiya xətlərinin köçürülməsi işləri davam etdirilir. Yol boyunca layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü suötürücü borular, su keçidləri, həmçinin zəruri olan yerlərdə yeraltı keçidlər və yol üzərində yeni avtomobil körpülərinin tikintisi davam etdirilir. Artıq 24 suötürücü borunun, 4 yeraltı keçidin, 12 ədəd kommunikasiya xətləri üçün nəzərdə tutulan ehtiyat keçidinin tikintisi yekunlaşıb.

Hazırda layihədə nəzərdə tutulan yolun 0.2, 6.1, 37 və 63-cü kilometrlik hissəsində avtomobil körpülərinin inşası davam edir, körpülərdə svay və betonlanma işləri icra olunur.

Dövlət başçısının tapşırığı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan, işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri Qubadlı-Eyvazlı avtomobil yoludur. 28.5 km uzunluğa malik avtomobil yolu 2 zolaqlı olmaqla, IV texniki dərəcəyə uyğun olaraq inşa edilir. Hazırda yolboyu genişmiqyaslı tikinti işləri aparılır. Cari il ərzində tikintisinin başa çatdırılması planlaşdırılan Qubadlı-Eyvazlı avtomobil yolu Qubadlı rayonunun Mahmudlu, Xıdırlı, Məlikəhmədli, Qudanlı, Davudlu, Eyvazlı kəndlərinin ərazisindən keçir.

Hazırda Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolununun tikintisi də sürətlə davam etdirilir. Cari ildə yekunlaşdırlması nəzərdə tutulan avtomobil yolunun uzunluğu 32 km təşkil edir. 2 hərəkət zolaqlı olacaq yolun layihə üzrə hərəkət hissəsinin eni 7 metr, torpaq yatağının eni 12 metr, çiyin hissələrin eni isə 2x2.5 (5 m) metr təşkil edəcək.Hadrut-Tuğ-Azıx mağarası avtomobil yolunun da bu il istifadəyə verilməsi gözlənilir. Uzunluğu 22 km, IV texniki dərəcəli, 2 hərəkət zolaqlı olan yolda işlər hazırda sürətlə davam etdirilir.

### Bəzi yollar "ağıllı" olacaq

**■ Məsələyə münasibət bildirən nəqliyyat sahəsi üzrə ekspert Eldəniz Cəfərli hafta.az açıqlamasında qeyd edib ki, vətəndaşlarımızın "Böyük Qayıdış"ını təmin etmək, azad olunmuş ərazilərdə davamlı iqtisadi inkişafa nail olmaq üçün yolların çəkilməsi əsas şərt kimi ortaya qoyulub:**

"Hazırda bu istiqamətdə işlər həm yüksək sürət, həm də keyfiyyətlə aparılır. Həmin ərazilərdə çəkilən yolların kateqoriyasına biz baxanda görürük ki, əsasən birinci və ikinci dərəcəli yollardır. Qeyd edim ki, o cür çətin dağlıq relyef şəraitində birinci və ikinci dərəcəli yolların çəkilməsi çətin məsələdir.

Hər ölkə bu yükü üzərinə götürə bilmir. Bunun üçün həmin ölkənin iqtisadiyyatı dayanıqlı olmalı, müvafiq qurumlar koordinasiyalı işləməyi bacarmalıdır. Hazırda çəkilən yollarda demək olar ki, işlərin 50 faizi tamamlanıb. Bundan başqa, bu yollarda hərəkətin daha rahat və sadələşdirilmiş şəkildə təşkili üçün ağıllı yol infrastrukturu səviyyəsində qurulması da gözlənilir. Bu infrastruktun özəlliyi ondan ibarərtdir ki, hərəkət zamanı sürücülərə yolda olan vəziyyətlə bağlı birbaşa məlumat ötürülə bilir. Bu yolların da bəzilərində ilin sonuna kimi işlər başa çatdırılacaq".

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Lavrovun "Fərrux kəndi" təxribatı

**İyunun 10-da Sergey Lavrovun Ermənistan səfərində Azərbaycanın Fərrux kəndi ilə bağlı təxribatçı, ikibaşlı bəyanatı ölkə ictimaiyyəti tərəfindən birmənalı qarşılana bilməz. Verilən xəbərlərə görə, Ermənistanda da bu məsələylə bağlı ikili yanaşmalar var. Bir qism deyir ki, ümumiyyətlə Fərrux kəndi ilə bağlı danışıqlar aparılmayıb, ermənilərin başı aldadılıb, azərbaycanlılar kəndə daxil olub və hamı da bununla razılaşıb.**

İkinci qisim deyir ki, bu bəyanat Ermənistanda sərhədlərin müəyyənləşməsi ilə bərabər Şuşanın, Hadrutun yenidən ermənilərin iddia etdiyi "Dağlıq Qarabağ"ın ərazisinə qaytarılıb işğaldan keçmiş sərhədlərin bərpası ilə bağlı prosesə təkan verə bilər.

Azərbaycan XİN-in bəyanatına fikir verək: "Qeyd etmək istərdik ki, Azərbaycan və Ermənistan tərəfindən təsis edilmiş delimitasiya komissiyalarının fəaliyyəti əvvəlcədən nəzərdə tutulduğu kimi, məhz iki ölkənin dövlət sərhədinin delimitasiyası məqsədini güdür. Bu proses çərçivəsində Azərbaycan-Ermənistan dövlət sərhədindən kənar hər hansı bir məsələyə, o cümlədən Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərlə bağlı məsələyə baxılması nəzərdə tutulmur".

**■ Politoloq Rəşad Bayramov hafta.az-a açıqlamasında bildirib ki, Serqey Lavrov proseslərdən bixəbər olan hər hansı bir adam deyil. O, kifayət qədər məlumatlıdır və Fərrux kəndinin Azərbaycan-Ermənistan dövlət sərhədində yerləşmədiyini yaxşı bilir.**

*Lavrov Fərrux kəndinin Azərbaycan-Ermənistan dövlət sərhədində yerləşmədiyini yaxşı bilir*



**Bunu bilə-bilə bu məsələnin delimitasiya prosesi çərçivəsində həll edilməli olduğunu iddia edirsə demək ki, məqsəd başqadır və sadəcə erməniləri sakitləşdirmək üçün verilmiş bəyanat da deyil.**

Politoloq hesab edir ki, Lavrovun bəyanatı Rusiyanın mövqeyidir. "Bu bəyanata Rusiyanın, xüsusilə son dövrlərdəki davranışı prizmasından baxmaq lazımdır. Məlumdur ki, bir neçə vaxtdır Rusiyaya bağlı rəsmi və qeyri-rəsmi çevrələrin Azərbaycan əleyhinə təxribatları geniş vüsət alıb. Putinin "Qarabağda hələ çoxlu problemlər var və ən əsası da təhlükəsizliklə bağlı problemlərdir", - bəyanatının ardınca Lavrovun "Biz Ermənistanın müdafiə qabiliyyətinin artırılması üçün hər şeyi edəcəyik", - deməsi bu təxribatların səviyyəsini daha da artırıb. "RİA-Novosti"nin məlum həyasızlığı, ardınca Qarabağda müvəqqəti yerləşmiş Rusiya "sülhməramlıları"nın Ermənistan baş prokuroru Artur Davtyanı Azərbaycanın beynəlxalq axtarışa verdiyi Araik Arutyunyanla görüşmək üçün Xankəndinə buraxması, Qarabağda yük maşınlarımızın saxlanılaraq saatlarla yoxlanılması, "sülhməramlılar"ın gözü qarşısında erməni terrorçularının ərazilərimizdə səngər qazması, Rusiya Dövlət Dumasının üzvü Zatulinin təxribatçı açıqlamaları və indi də sərhədlərin müəyyənləşməsi ilə bağlı məsələni öz monopoliyasına almaq istəyən Rusiyanın xarici işlər nazirinin bu cür bəyanatı dediklərimin bariz sübutudur". R.Bayramov Lavrovun səhvən və ya məlumatsızlıq səbəbindən bu cür bəyanat vermədiyini sübut edən digər faktlara diqqət çəkib. Onun sözlərinə görə, faktlar bu proseslərin birbaşa eyni mərkəzdən, yəni Kremldən idarə olunduğunu sübut edir. "Məsələn, Rusiya Mədəniyyət Nazirliyi erməni rəssam Edmond Petrosyanın iyunun 18-dək Moskvada Şərq xalqları Dövlət İncəsənət Muzeyində keçiriləcək "Dağlıq Qarabağın sirləri" adlı sərgisini elan edib. Təkcə sərginin adı belə ölkəmiz əleyhinə Rusiya rəsmi strukturuna bağlı daha bir özbaşınalıqdır. Mən hələ həmin sərgidə təqdim olunacaq rəsm əsərlərində nələrin təsvir olunduğunu demirəm.

Bütün bunlar verilmiş bəyanatların və baş verən təxribatların vahid mərkəzdən idarə olunduğuna şübhə yeri qoymur. Əgər belə olmasaydı, Rusiyanın rəsmi dövlət agentliyi olan "RİA Novosti" öz səhifəsində və rəsmi məlumatlarında Azərbaycan ərazilərini erməni adları ilə qeyd edən Rusiya Müdafiə Nazirliyi, müvəqqəti olaraq yerləşdikləri ərazilərdə separatçılara hər cür dəstək verən Rusiya "sülhməramlıları" və ən nəhayət, Rusiya xarici işlər və mədəniyyət nazirlikləri indiyə qədər Azərbaycan tərəfindən edilmiş rəsmi etirazlardan dərs çıxarar və buna uyğun müvafiq addımlar atardılar. Bu addımlar atılmırsa və əvəzində hər gün yeni təxribatlara şahidlik ediriksə, demək ki, Rusiyanın Qarabağla bağlı fərqli planları var". Politoloq bildirir ki, Rusiya Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh sazişinin imzalanmasına hər iki ölkəyə təsir imkanlarını və nəticədə bölgədəki mövcudluğunu itirmək təhlükəsi kimi baxır. "Rusiya buna görə bütün imkanları ilə təxribatçılara rəvac verən davranış sərgiləyir".

***✍ Tahirə***

## XƏBƏRİNİZ OLSUN...




■ UEFA Çempionlar Liqasında mübarizə aparan "Qarabağ"ın ilk təsnifat mərhələsindəki rəqibi bəlli olub. Ağdam klubu Polşanın "Lex" klubu ilə qarşılaşacaq.

■ Təhsil naziri Emin Əmrullayev Azərbaycanda rusdilli məktəblərin bağlanması ilə bağlı sualı cavablandırıb. Nazir qeyd edib ki, bu məsələ gündəmdə deyil: "Hazırda Azərbaycanda hər iki dildə təhsil var. Rusdilli məktəblərin bağlanması müzakirə mövzusu deyil".

■ Alban-Udi Xristian dini icması üzvlərinin 15 İyun Milli Qurtuluş Günü münasibəti ilə işğaldan azad olunan Laçın rayonuna səfəri təşkil olunub. Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə baş tutan səfərdə məqsəd Laçın ərazisində yerləşən qədim alban məbədi olan "Ağoğlan" monastırını ziyarət etmək, Milli Qurtuluş Gününü orada qeyd etmək olub.

■ Dünyanın 500 ən varlı insanı 2022-ci ilin əvvəlindən 1,4 trilyon dollar itirib. Bu barədə məlumatı "Bloomberg" agentliyi yayıb. Agentliyin məlumatına görə, dünyanın ən varlı 5 insanı cari il ərzində ümumilikdə 345 milyard dollar itirib.



■ Ukraynalı hərbçilərin Almaniya istehsalı özüyeriyən haubitsalarla bağlı təlimləri tezliklə başa çatacaq. Bu barədə Almaniyanın müdafiə naziri Kristine Lambrext jurnalistlərə açıqlamasında bildirib. O qeyd edib ki, təlimlər başa çatdıqdan sonra ilk haubitsaların Ukraynaya göndərilməsinə başlanılacaq.

■ Məşhur İsrail yazıçısı və sülh fəalı Abraham Yehoşua 85 yaşında vəfat edib. Hnun ölümü barədə Tel-Əviv xəstəxanası məlumat yayıb. Abraham Yehoşua 1936-cı ildə Yerusəlimdə anadan olub. Onun əsərlərinə bir sıra filmlər çəkilib. Müəllifin məşhur "Qocanın ölümü" adlı ilk kitabı 1962-ci ildə, ən son əsəri olan "Üçüncü məbəd" adlı novellası isə bu ilin əvvəlində nəşr olunub.



■ Finlandiyanın Kotka şəhər şurası Sovet lideri Vladimir Leninin sonuncu abidəsinin sökülməsi barədə qərar qəbul edib. Fbidənin muzeyə köçürülməsi təklifi həm şəhər şurası, həm də şəhər sakinlərindən gəlib.

■ Zaporojye vilayətində ölən hərbçilərin cəsədlərinin növbəti dəyişdirilməsi prosesi baş tutub. Kazılıq xüsusi şəraitdə itkin düşmüş şəxslər üzrə müvəkkil Oleq Kotenkonun iştirakı ilə aparılan danışıqlar nəticəsində əldə olunub. Razılaşmaya görə, "Azovstal"da həlak olmuş 64 ukrayna hərbçisinin meyiti Ukrayna tərəfinə təhvil verilib.

# Rusiya Qarabağ müharibəsində istədiyinə nail ola bilmədi

***Siyasi təhlükəsizlik məsələləri üzrə ekspert Ərəstun Oruclu ilə Hafta.az üçün budəfəki söhbətimizdə 100 gündən çoxdur davam edən Ukraynadakı savaşdan meydana çıxan siyasi nəticələr, Ermənistandakı son ayların "müqavimət hərəkatı" və Rusiyaya bağlı revanşist müxalif qüvvələrin hakimiyyətə gələ bilmək şanslarından, həmçinin son günlər Rusiya "sülhməramlıları"nın Tərtər istiqamətində fəallaşması və separatçı erməni ünsürlərinin Şuşanın kəndlərində Azərbaycan tikinti karvanlarının qarşısını kəsməyə cəhdlərinin meydana çıxmasından bəhs etdik.***

***- Ərəstun bəy, Rusiyanın Ukraynaya təcavüzündən 100 gündən şox zaman keçir. Son durumu necə dəyərləndirirsiniz?***

- Rusiyanın Ukraynaya hərbi təcavüzü ilə başlayan müharibənin başlanğıcından, dediyiniz kimi, 100 gündən çox vaxt keçir və artıq bir neçə nəticə görünəndir. Birincisi, budur ki, Kremlin planlaşdırdığına rəğmən qısa müddətdə Ukraynanı işğal etmək, çökdürmək, orada rejimi dəyişdirmək, Putinin təbirincə desək, "demilitarizasiya və denasifikasiya" əməliyyatlarını həyata keçirmək mümkün olmadı. Əksinə, Ukrayna ordusu Rusiya işğalçılarına çox ciddi müqavimət göstərdi və Putinin "yenilməz" ordusunu ağır itkilərə uğratdı. Təbii ki, bu şəraitdə "demilitarizasiya" da, "denasifikasiya" da uydurma bir şeylərdir. Hər kəs başa düşürdü ki, Ukrayna ordusu SSRİ-dən qalma silahlarla təchiz olunub və onun müqavimət imkanları məhz bu silahlarla məhdudlaşır. Əslində, Rusiya da buna arxayın idi. Sadəcə olaraq Moskvadakılar Ukrayna xalqının döyüş motivini, döyüş ruhunu nədənsə nəzərdən qaçırmışdılar. Hazırda Rusiya bunun da bədəlini ödəməkdədir. Demilitarizasiya məsələsinə gəldikdə, tam əksi baş verdi. Biz gördük ki, NATO üzvləri başda olmaqla dünyanın bir sıra ölkələri Ukraynaya açıq hərbi yardım göstərməyə başladılar. Hazırda həmin hərbi yardımın həcmi durmadan artır. Bu da əlbəttə ki, Rusiyanın daha ağır itkilər verməsinə gətirib çıxarır. İndi Rusiyada elə vəziyyət yaranıb ki, itkilərin özü belə, dövlət sirri elan olunub. Məhkəmə qərar verib ki, ordunun Ukraynadakı itkiləri haqda məlumat yaymaq bu, ümumiyyətlə "dövlət sirri haqda" qanunu pozmaq deməkdir və az qala dövlətə xəyanət sayılır...

Bir sözlə,dediyim kimi, Moskva Ukraynada öz istədiyinə nail ola bilmədi, Rusiya ağır itkilər verdi. Nəzərə alsaq ki, Rusiyanın təcavüzü Ukrayna dövlətinə qarşı yönəlib və döyüşlər əsasən bu ölkə ərazisində gedir, inkar edə bilmərik ki, Ukraynanın özü də kifayət qədər itkilər verməkdədir. Burada söhbət əsasən dinc əhali arasındakı ağır insan itkiləri, həmçinin ən azı 4-5 milyon ukraynalının ölkəni tərk edərək qaçqına çevrilməyə məcbur olmasından gedir...

Ukraynadakı savaşın digər bir nəticəsi budur ki, planetdə sərt bir qütbləşmə getdi və Rusiya faktiki olaraq döyüş meydanında tək qaldı. Və bu da gözlənilən idi. Ona görə ki, Rusiyanın 2000-ci ildən bu yana yürütdüyü millitarizasiya, qlobal iddialara düşmək siyasəti, öz qonşularına, hətta özündən coğrafi baxımdan çox uzaqda yerləşən ölkələrə müdaxilə cəhdləri, əlbəttə ki, Qərbdə onun ənənəvi rəqiblərində və NATO-da qıcıq yaradırdı. Həmin reaksiya, sadəcə, bir zaman gözləyirdi ki, Rusiya bunun bədəlini artıqlaması ilə ödəməli olsun. Bu minvalla Putin rejimi hazırda həmin bədəli ödəməkdədir...

Müharibənin gedişatına gəldikdə, görünən budur ki, artıq hərbi əməliyyatlar sürünən fazaya keçib. Yəni artıq müxtəlif bölgə və istiqamətlərdə mövqe döyüşləri gedir. Bunun Rusiya tərəfindən planlı olduğunu düşünmürəm. Sadəcə, bugünkü, mövcud gerçəklik budur. Rusiya Ukrayna ərazisindəki infrastrukturu dağıtmaqla bu ölkənin ordusunu güclü cavab zərbələri endirmək imkanlarından, qismən də olsa, məhrum edir, digər tərəfdən, məlum olur ki, Rusiyanın öz ordusu hazırlıq və döyüş qabiliyyəti baxımından çox biabırçı vəziyyətdə imiş və gizli, sərt müqavimətlə üzləşdiyindən ciddi irəliləyişlər, uğurlar əldə edə bilmir. Yəni bu gün gedən əsasən mövqe döyüşləridir. Mən belə düşünürəm...

***- Qərbin, ABŞ-ın Ukraynaya müasir, yüksək dəqiqlikli texnika və silahlar tədarükündə tərəddüd etməsi və ləngiməsi istər canlı qüvvə, istərsə də texnika baxımından say üstünlüyünə malik olan və artıq 4-cü on minliyə yaxınlaşan itkilərə əhəmiyyət verməyən Putin iqtidarının "sürünən savaş" taktikasını davam etdirəcəyinə və daha çoz ərazilər işğal edəcəyinə gətirib çıxarmayacaq ki?***

- Düşünmürəm ki, Qərbin Ukraynaya silah təcavüzü planlı şəkildə ləngidilir. Sadəcə olaraq, hələ ABŞ Prezidenti Donald Trampın dövründən NATO ölkələri arasında çox ciddi soyuqluq yaranmışdır. Ukrayna məsələsində, Rusiyanın təcavüzkar siyasəti məsələsində də ABŞ-la, ilk növbədə, kontinental Avropa ölkələri arasında, xüsusən böyük silah partnyorları olan Almaniya və Fransa arasında yetərincə ziddiyyətli yanaşmalar var. Fransa və Almaniyada, xüsusən də kontinental Avropanın qərb hissəsində nədənsə Rusiyanın Ukraynaya təcavüz ehtimalını realist qiymətləndirə bilmirdilər. Amma Ukraynadakı savaşın miqyasını görüncə həmin düşüncə dəyişdi və NATO vahid güc və mərkəz kimi çox gec səfərbər olundu. Silahların verilməsi əsasən bu səbəbdən ləngidi. Digər tərəfdən, silahların verilməsi yalnız texniki bir məsələ deyil, bu həm də hüquqi bir məsələdir. Yəni hansısa bir ölkəyə silah satmaq Qərb ölkələrində, xüsusən də ABŞ-da çox ciddi hüquqi nəzarət tələb edir. Bu səbəblər də ləngimələrə gətirib çıxardı. Amma artıq həmin proses nizama düşüb və Ukraynaya silahlar verilir. Rusiya "sürünən savaş" taktikasını qəbul etdirir. Mən deyərdim ki, bu daha çox hərbi taktiki reallığın nəticəsidir. Qərargahda müxtəlif pıanlar cızmaq, müxtəlif əməliyyatalr hazırlamaq olar. Lakin döyüş meydanında real hərbi güclər toqquşur və əməliyyatları idarə edən həmin meydandakı səhra komandirləridir. Müharibənin gedişatını və müqəddəratını onlar həll edirlər. Mən bir daha deyirəm, düşünmürəm ki, Rusiya daha çox torpaq işğal etmək məqsədilə Ukraynaya "sürünən savaş" taktikasını qəbul etdirir. Ümumiyyətlə, müharibənin gedişini və taktikasını müəyyənləşdirənin Rusiya olduğunu görmürəm. Əksinə, Ukrayna ordusu yetərincə ciddi təşəbbüslər irəli qoyur və özünün hərbi taktiki döyüş üsulunu bir sıra hallarda Rusiyaya qəbul etdirir. Rusiya da bunu qəbul etməyə məcburdur. Ona görə ki, itkilər verir. Başqa cür mümkün deyil. Yəni reallıq budur ki, Rusiya ordusu günü-gündən zəifləyir, onun genişmiqyaslı əməliyyatlar aparmaq imkanları məhdudlaşdırır. Digər tərəfdən isə Ukrayna ordusu müdafiə mövqeyindədir. Bunu hərbi ekspertlər daha aydın izah edə bilər: onun müdafiə taktikasını dəyişərək hücum taktikasına keçməsi əlavə zaman və resurslar, fərqli planlama və s. tələb edir. Yəni bütün bu amillər də ortalıqdadır. Odur ki, demək olmaz ki, məhz Qərbdən gələn silahların gecikməsindən Rusiya istifadə edərək müəyyən irəliləyişlərə nail oldu. Əlbəttə, silahlar gecikdi. Eyni zamanda yeni silahları öyrənmək, onları idarə etməyə alışmaq da zaman tələb edir. Ona görə də, Qərbin silahları öz effektini haradasa 15-20 gün, bəlkə də bir aydan sonra göstərə bilər. Amma "sürünən savaş" taktikasının reallıqdan doğan seçimsizlikdən yaranan bir vəziyyət olduğunu düşünürəm... Və əlavə olaraq onu da deyim ki, insan itkisi Rusiya üçün heç vaxt əhəmiyyət kəsb etməyib. Ukrayna savaşında 40 minə yaxın, yaxud 30-40 min arası itki veriblər, böyük sayda texnika itiriblər. Hesab edirəm ki, Rusiya bundan sonra yüz minləri də itirsə belə, bu, nə onun hərbi, nə siyasi rəhbərliyi, nə də əhalisi üçün heç bir rol oynamayacaq. Rusiya dövləti, Rusiya ordusu tarixboyu belə müharibə aparıb. Onlar üçün insan faktorunun heç bir rolu olmayıbdır. Bu gün də eyni vəziyyətdir...



**Ərəstun Oruclu,**
siyasi təhlükəsizlik məsələləri üzrə ekspert

> *Sülhməramlıların rəsmi statusunun olmaması Azərbaycan üçün müsbət haldır...*

***- Ermənistandakı "müqavumət hərəkatı", İrəvanda keçirilən KTMT tədbirləri fonunda Paşinyan hakimiyyətinin taleyini necə görürsünüz? Rusiyameyilli, əsasən, Qarabağ klanından ibarət müxalifətin hakimiyyətə gəlməyə şansları varmı?***

- Yəqin, heç kəsə sirr deyil ki, Ermənistanda "müxalifət" hesab edilən, Paşinyan hakimiyyətinə qarşı müxalifətdə olan Qarabağ klanının arxasında Rusiya dayanır. Bu, həmin klandır ki, Moskvanın himayəsi altında 20 il hakimiyyətdə olub və bu gün isə Putin rejimi onlardan Paşinyana qarşı istifadə edir. Fəqət, başlıca məqsəd Azərbaycanla Ermənistan arasında başlanmış sülh prosesini, sülh danışıqlarını pozmaqdır.

Qaldı bəhs edilən klanın Paşinyanı hakimiyyətdən devirməsi məsələsinə, hesab edirəm, bu, mümkün olmayacaqdır. Ona görə ki, son etiraz aksiyaları da onların erməni əhali arasında yetərincə nüfuzu olmadığını göstərir. Uzağı, 12-13 min erməni çıxır bu rusiyayönlü müxalifətin mitinqlərinə. Paşinyanın inqilab edərkən meydana çıxardığı 100 mindən yuxarı fəal etirazçı ilə müqayisədə həmin rəqəm heç nədir. Təbii ki, belə miqyaslı aksiyalarla heç nəyi dəyişmək mümkün deyil...

Əlbəttə, Paşinyana qarşı Rusiyaya bağlı hansısa oliqarx, həmçinin hərbi dairələr də cəlb oluna - yumşaq güc metodundan sərt güc metoduna keçilə bilər. Yəni hərbi çevrilişə, sui-qəsdlərə və ya oxşar digər addımlara cəhdlər də edilməsi gözləniləndir. Düşünürəm ki, bunlar da alınmayacaq. Paşinyan sadə, sadəlöhv və təcrübəsiz görünməsinə rəğmən kifayət qədər çevik addımlar atır. Yaxın zamanlarda məhz Ermənistan ordusunda, Moskvaya bağlı erməni generallar arasında kütləvi həbslər də başlaya bilər. Yəni düşünmürəm ki, Paşinyan ölkədəki vəziyyətə nəzarət edə bilmir və etmir, kimin kim olduğunu bilmir. Adam artıq 4 ilə yaxındır ki, hakimiyyətdədir. O, bütün reallığı çox gözəl dərk edir. Görünən odur ki, Paşinyanın Ermənistan əhalisi tərəfindən dəstəyi hələ ki, yetərincədir. Ona görə ki, Qarabağ klanının bütün bu "miatsum", "Qarabağın Ermənistana birləşdirilməsi" dedi-qodularına, təbliğatlarına baxmayaraq hər zaman yerli ermənilərlə Qarabağ erməniləri arasında bir ziddiyyət və daxili rəqabət olub. Həmin ziddiyyət Qarabağ klanının 20 illik hakimiyyətindən sonra bu gün özünü daha qabarıq şəkildə göstərir. Düşünürəm ki, hazırkı durumda onlar üçün bu şans yoxdur və Rusiyaya bağlı bu klan bir daha hakimiyyətə gələ bilməyəcək. Öncə dediyim kimi, hansısa təşkil olunmuş hərbi çevriliş, yaxud sui-qəd yoluyla bu, mümkün ola bilər. Sırf siyasi yolla, inqilab yoluyla Qarabağ klanının hakimiyyətə qayıdış şansları minimaldır. Belə bir şey baş verərdisə, bunu siyasətdə möcüzə kimi qəbul etmək olardı. Real siyasətdə möcüzə baş vermir. Olsa da çox nadir hallarda yaranır...

***- Ərəstun bəy, son günlər Rusiya "sülhməramlıları"nın Tərtər istiqamətində fəallaşması və separatçı erməni ünsürlərinin Şuşanın kəndlərində Azərbaycan tikinti karvanlarının qarşısını kəsməyə cəhdlərinin meydana çıxması dövlətimizin nəzarətində olmayan ərazilərimizdə proseslərin hansı istiqamətdə getməsinin göstəricisidir?***

- Rusiya sülhməramlılarının Tərtər istiqamətində fəallaşmasına gəlincə, bu, ilk dəfə deyil. Bu, artıq həmin kontingent tərəfindən sistemli və davamlı xarakter almış davranışdır. Bu məsələyə biz həm də kompleks yanaşmalıyıq. Rusiya tərəfindən atılan siyasi və diplomatik addımlar, Rusiya rəsmilərinin ritorikası... Eyni zamanda həmin o "sülhməramlı" adlandırılan Rusiya hərbi kontingentinin nümayəndələrinin Azərbaycanın suverenliyini pozmağa, onun hüquqlarını məhdudlaşdırmağa yönəlmiş davranışı... Rusiya hərbçiləri bir sıra hallarda bunu özləri həyata keçirir, bəzi hallarda isə nəzarət etdikləri həmin Azərbaycan torpaqlarında tərksilah edilməli olduğu halda, əksinə, dəstəklənən, silahlandırılan, təlim keçilən qanunsuz erməni silahlı birləşmələrinin əli ilə həyata keçirirlər. Bu, Azərbaycana daha çox psixoloji basqı cəhdidir. Hesab edirəm ki, bunların cavabı sərt şəkildə verilməli, yeri gələndə hətta güc amilindən də istifadə edilməlidir. Tutalım ki, Rusiya hərbçiləri, yaxud erməni dəstələri hansısa istiqamətdə təxribat törədirlərsə, oraya Azərbaycan Ordusunun ən yüksək döyüş qabiliyyətli qüvvələrini göndərmək gərəkdir. Yeri gəldikdə təpki verib oradakı qüvvələri geri atmaq lazımdır. Mən düşünmürəm ki, buna görə hansısa bir müharibə olacaqdır. Əsla. Təxribat törədənlərə yerini göstərəndə bu, artıq bir iradə və güc nümayişi olacaq. Azərbaycanın öz ərazisində dövlət olaraq özünün siyasətinin həyata keçirilməsinin nümunəsi olacaq. Yalnız bu halda Qarabağdakı erməni və ya Rusiya təxribatlar bitəcək. Dediyimiz tədbirlər görülmədiyi halda isə həmin təxribatlar davam edəcək, təəssüf ki... Təəssüflə deməliyəm, çünki Rusiyanın Azərbaycana qarşı siyasətində mühüm bir element var - bu, geosiyasi elementdir. Rusiyaya Azərbaycan ərazisindəki, o cümlədən Tərtər istiqamətində, Tərtərə yaxın ərazidən keçən Gəncə dəhlizi kimi kommunikasiyalar lazımdır. Rusiya 44 günlük müharibə nəticəsində onları əldə edə bilmədi. Əvvəlcədən planlaşdırdığı digər ərazilərə də "sülhməramlı" adı altında hərbi birləşmələrini yerləşdirə bilmədi. Bunun üçün əsasən Goranboy və İranla həmsərhəd Zəngilan-Cəbrayıl əraziləri nəzərdə tutulmuşdu. Çünki məhz həmin ərazilərdən keçən və Yaxın Şərqə aparan kommunikasiya xətləri Rusiyaya lazım idi. Biz bunu II Qarabağ müharibəsindən əvvəl də demişdik. Müharibədən sonrakı bütün danışıq və cəhdlər, bu gün də davam edən həmin o hökumətlərarası komissiyanın gündəmində müzakirə olunan məsələlər göstərir ki, 44 günlük savaşda Rusiyanın məqsədi geosiyasi idi. Azərbaycanın məqsədi isə öz ərazisinə nəzarəti bərpa etmək idi. Ölkəmiz buna, tam olmasa da, xeyli dərəcədə nail oldu. Təəssüf ki, nəticədə ərazimizə Rusiya qoşunları yerləşdirildi. Onların hansı statusda daxil olmasının dəxli yoxdur. Onlar bütün hallarda Rusiyanın hərbi birləşməlidir. İndiki halda Azərbaycan ərazisindəki Rusiya qoşunlarının heç bir rəsmi və hüquqi statusu yoxdur. Əslində bu, yəni ərazimizdəki Rusiya "sülhməramlı"larının rəsmi və hüquqi statusunun olmaması Azərbaycan üçün müsbət bir haldır. O baxımdan ki, bu, ümidverici bir məqamdır. Yəni onları istənilən vaxt ərazimizdən çıxarmaq olar. Hər bir halda Rusiya istədiyinə nail ola bilmədi. Ona görə də öncə adlarını çəkdiyimiz istiqamətlərdə mütəmadi olaraq təxribatlarını davam etdirir və etdirəcək. O zamana qədər ki, Azərbaycan buna adekvat təpki verəcək...

*✍ Sultan Laçın*

**Xəbər verildiyi kimi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) iyul ayından etibarən əlillik üzrə yeni meyarlar təyin edib. ƏƏSMN-nin məlumatına əsasən, 2022-ci ilin son ayına qədər 1-dən çox xəstəliyi olsa da, yalnız bir xəstəlik üzrə əlillik təyinatı aparılırdısa, artıq iyul ayından etibarən əlilliyə əsas verən bir və ya iki xəstəlik üzrə əlillik təyinatı veriləcək. Əlilliyin təyinatı ilə bağlı yeni meyarlar əlilliyi olan vətəndaşların sosial təminatı ilə bağlı hansı yeniliyi vəd edir?**



# Əlillik təyinatında yeni meyarlar

■ **Əlil Qadınları Cəmiyyətinin sədri Məhluqə Rəhimova hafta.az-a açıqlamasında bildirib ki, əlillik üzrə yeni meyarların təyin edilməsi Qarabağ qazilərinin, müharibədə xəsarət alan mülki insanların, eləcə də digər ümumi xəstəliyi olan insanların əlilliyinin təyin edilməsi, əlillik dərəcələrinin verilməsi ilə bağlı mövcud problemləri aradan qaldıra biləcək.** Onun sözlərinə görə, xəstəliyi olan insanların əlilliyinin təyin olunması, dərəcələr verilməsi ilə bağlı əngəllərin aradan qaldırılması üçün aparılan araşdırmalar, müzakirələr, əhalinin haqlı narazılıqlarına səbəb olan amillər, nəhayət, öz həllini tapdı.

"Artıq 568 adda xəstəliklə bağlı əlillik veriləcək. Sağalmaz xəstəliklərlə bağlı uşaqlara müddətsiz əlillik təyin ediləcək və heç vaxt təkrar qiymətləndirmə aparılmayacaq. Əvvəllər 18 yaşınadək əlilliyi müəyyən edilən uşaqların müavinəti dayandırılırdı, yenidənqiymətləndirmə aparılırdı. Bu da çox ciddi problemlər yaradırdı. Eləcə də onkoloji xəstəlikləri olan insanların da əlilliyi dayandırılıb, yenidənqiymətləndirmə aparılmayacaq. Yaxud, diaqnozu ağır, yaxud yüngül olmasından asılı olmayaraq, sağlamlıq imkanları məhdud bütün uşaqlar üçün sosial ödənişlərin məbləği eyni idisə, indi diaqnozu ağır olan 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial ödənişlər daha yüksək olacaq. Şəxsdə bir neçə xəstəlik varsa, hər birinə görə müavinət alacaq. Əvvəl isə müxtəlif xəstəlikləri olsa da, yalnız bir xəstəliyə görə müavinət alırdılar. Yəni müavinəti yüksək olacaq". M.Rəhimova hesab edir ki, əlilliyin yeni meyarları bu vətəndaşların sosial durumlarının yaxşılaşdırılması üçün çox mühüm addımdır.

"Cənab Prezident sosial dövlət konsepsiyasını imzalayıb və biz sosial dövlətin vətəndaşlarıyıq. Düşünürəm, bu yeni konsepsiyaya uyğun olaraq dövlət orqanları və qeyri-hökumət təşkilatları üzərlərinə düşən öhdəlikləri yerinə yetirməkdə heç bir problem olmayacaq. Əlillik, sosial müavinətlərlə bağlı insanların qarşılaşdıqları problemlərin hamısı aradan qaldırılacaq". M.Rəhimova əlilliyin təyin edilməsi prosesində komissiyalarda iştirak etdiyini və bir çox hallarda əlilliyi olmayan insanların öz "əlilliklərini" bərpa etməyə çalışdıqlarına şahidlik etdiyini deyib. O, əlilliyin qiymətləndirilməsi ilə bağlı rayonlarda yaranan mövcud problemlərə də diqqət çəkib. Onun sözlərinə görə, bundan sonra kəndlərdə xəstəliyi olan və əlilliyinin qeydiyyatı yenidən aparılan şəxsin get-gələ salınması və komissiyalardan keçmək üçün süni şəkildə Mərkəzə göndərilməsi ilə bağlı məsələlər də həllini tapacaq.

> *Sağalmaz xəstəliklərlə bağlı uşaqlara müddətsiz əlillik təyin ediləcək və heç vaxt təkrar qiymətləndirmə aparılmayacaq*

> *Digər xəstəliklər üzrə də, 10 faiz artırılmaqla yekun əlillik dərəcəsi təyin olunacaq*

> *Sevindirici hal qəbul olunan yeni meyarların 3 dərəcə üzrə məhdud çərçivədə deyil, faiz göstəricisinə əsaslanmasıdır*

"Artıq yerli komissiyalar buna nəzarət edir, onların fəaliyyəti bərpa edilib. Regional mərkəzlər yaranıb. Əgər şəxsin haqlı narazılığı varsa, yerli komissiyalar düzgün diaqnoz qoymayıblarsa, ərizə ilə Mərkəzə gələ bilərlər.

Bütün hallarda yerli FTEK-lərin bundan sonra belə səhvlər edəcəyinə inanmıram. Çox ciddi nəzarət var. FTEK-lər əlilliyi olan insanların əlilliyini düzgün müəyyən etməyə məcburdur. Bu sahədə boşluq görmürəm. İnanmıram ki, xəstəliyi olan adamlara əlillik verilməsin, dərəcəsi düzgün qiymətləndirilməsin".

■ **"Azərbaycanda iyulun 1-dən əlilliyin təyinatı istiqamətində fundamental islahat həyata keçiriləcək. Bu islahat imkan verəcək ki, əlillik təyinatlarında daha həssas, obyektiv və ünvanlı yanaşma tətbiq edilsin". Bunu hafta.az-a açıqlamasında ölkəmizdə əlillik təyinatı ilə bağlı tətbiqi planlaşdırılan yeni meyarlardan danışarkən Azərbaycan Əlil Təşkilatları İttifaqının prezidenti Davud Rəhimli bildirib.**

Onun sözlərinə görə, yeni meyarlar indiki meyarlardan bir sıra üstünlükləri ilə fərqlənir: "Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilmiş və əlillik sahəsində mütərəqqi dünya təcrübəsinə uyğun fundamental dəyişikliyi nəzərdə tutan yeni "Əlilliyin müəyyən olunması meyarları" bu il iyulun 1-dən qüvvəyə minəcək. Həmin vaxtdan sonra əlillik üçün müraciət edənlərin əlilliyinin qiymətləndirilməsi yeni meyarlar əsasında aparılacaq. Yəni, yeni meyarlarla əlilliyin qiymətləndirilməsi ənənəvi 3 dərəcə üzrə məhdud çərçivədə deyil, daha geniş spektrdə olmaqla, orqanizmin funksiyalarının itirilməsi faizinin müəyyən edilməsi prinsipi əsasında, həm də xəstəliyin ağırlıq dərəcəsi nəzərə alınmaqla təyin olunacaq. Belə ki, I dərəcə - orqanizmin funksiyalarının 81-100 faiz itirilməsi, II dərəcə - orqanizmin funksiyalarının 61-80 faiz itirilməsi, III dərəcə - orqanizmin funksiyalarının 31-60 faiz itirilməsi kimi müəyyən ediləcək. Həmçinin sağlamlıq imkanları məhdudluq da bu əsasda təyin olunacaq. Bu standartlar Ümumdünya Səhiyyə Təşkilatının, Avropa ölkələrinin standartlarında olduğu kimi, orqanizmin funksiyalarının itirilməsi faizi əsasında, əsasən özünəqulluq, səmtlənmə, qidalanma, sərbəst hərəkət etmə və s. kimi həyat fəaliyyətinin əsas istiqamətlərinin məhdudlaşma dərəcəsi nəzərə alınmaqla aparılacaq. Bundan başqa, əsas yeniliklərdən biri də xəstəliklərlə bağlıdır. İndiki qaydalara əsasən, əlillik 168 xəstəlik üzrə müəyyən edilir, lakin yeni qaydalarda bu xəstəliklərin sayı 563-ə qədər artırılıb. Yəni artıq 168 yox, 563-ə yaxın xəstəlik üzrə əlillik faizi almaq mümkün olacaq. Nəticə etibarilə yeni meyarlar əsasında əlillik müəyyən olunmasına əsas verən xəstəliklərin sayı 4,4 dəfə artırılıb. Yeni meyarların digər bir üstünlüyü isə ondan ibarətdir ki, əlilliyə əsas verən bütün xəstəliklər nəzərə alınacaq. Məsələn, hazırda əlilliyə əsas verən birdən çox xəstəlik olduqda, onlardan yalnız biri üzrə əlillik təyinatı aparılır. İyulun 1-dən isə əlilliyə əsas verən iki və daha çox xəstəlik olduqda, həmin xəstəliklərdən ən ağır dərəcəli diaqnoz götürüləcək. Eyni zamanda, digər xəstəliklər üzrə də 10 faiz artırılmaqla yekun əlillik dərəcəsi təyin olunacaq. Tutaq ki, insanda ən ağır diqnoza görə orqanizmin funksiyalarının 55 faizinin itirilməsi müəyyən edilibsə və həmin şəxsə 3-cü qrup əlillik düşürsə, bununla paralel orqanizmdəki digər məhdudluqlar da nəzərə alınacaq. Həmin 55 faizin üzərinə digər məhdudluqlar nəzərə alınmaqla 10 faiz əlavə olunacaq.

Nəticədə həmin şəxsin orqanizmin funksiyaları itirmə faizi 65-ə yüksələcək. Bu o deməkdir ki, şəxs artıq 3-cü deyil, ikinci qrup əlillik təyinatı əldə edəcək. Təbii ki, nəticədə həmin şəxsə təyin olunan müavinət də avtomatik olaraq artacaq. Hesab edirəm ki, ümumilikdə bu addım əlillik təyinatlarına daha həssas və obyektiv, ünvanlı yanaşmanı təmin edəcək, eyni zamanda, müvafiq kateqoriyadan olan şəxslərin cəmiyyətə inteqrasiya imkanlarını artıracaq".

■ **"Bildiyimiz kimi, iyul ayının 1-dən etibarən, əililliyin təyin olunması meyarında dəyişikliklər tətbiq olunacaq. Düşünürəm ki, yeni meyarlara əsasən əlillik artıq üç dərəcə üzrə məhdud çərçivədə deyil, orqanizmin funksiyalarının itirilməsi faizinin müəyyən edilməsi əsasında, daha əhatəli qiymətləndirilməsi öz effektini verəcək və əhalinin sosial təminatını daha da yüksəldəcək". Bu fikirləri hafta.az-a açıqlamasında millət vəkili Müşfiq Cəfərov bildirib.**

Deputat, həmçinin qeyd edib ki, bundan sonra şəxsin əmək fəaliyyəti üzrə həyat fəaliyyətinin 7 əsas kateqoriyasının məhdudlaşma dərəcəsi əsas götürüləcək.

"Bununla da vətəndaşların razılığı və məmnunluğu təmin olunacaq. Bu addım birbaşa sosial siyasətin davamlılığının tamamlayıcısıdır. Lakin yenə də mənim diqqət çəkmək istədiyim əsas məqam şəxsin əlilliyinin təyin olunması zamanı prosesdə iştirak edən qurumlararası koordinasiyanın düzgün qurulmasıdır. Mən vətəndaş qəbulları zamanı ən çox qarşılaşdığım problemin məhz bu olmasının şahidi oluram. Bir qurum rəy verir ki, əlilliyin təyin olunması uyğundur, amma digər qurum bunu inkar edəcək rəy verir, bu da öz növbəsində narazılığa səbəb olur. Sevindirici hal qəbul olunan yeni meyarların 3 dərəcə üzrə məhdud çərçivədə deyil, faiz göstəricisinə əsaslanmasıdır, çünki ikinci və üçüncü qruplar arasında ciddi fərq yoxdu. Düşünürəm ki, yeni meyarlar bu problemin aradan qalxmasına şərait yaradacaqdır".

*✍ Tahirə*

# Dövlət qulluğuna qəbul

**_İyunun 13-də 8 dövlət orqanında inzibati vəzifələrin 2-4-cü təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə daxili müsahibə elanı verilib. Dövlət İmtahan Mərkəzindən hafta.-az-a bildirilib ki, mərkəzi icra hakimiyyəti orqanlarında elana çıxarılan vəzifələrin 13-ü dövlət qulluğu vəzifələrinin A növünə (inzibati rəhbər) və 1-i B növünə (inzibati icraçı) aiddir. Ən yüksək vəzifələr inzibati vəzifələrin 2-ci təsnifatına uyğun olan Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlığı Agentliyinin direktoru və Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması və Meşələrin İnkişafı Xidmətlərinin rəisi vəzifələridir._**



Namizədlər nələri bilməlidirlər?

## Araşdırma

Ümumilikdə isə İqtisadiyyat Nazirliyində 3, Ekologiya və Təbii Sərvətlər Nazirliyində 2, Hesablama Palatasında 2, Energetika Nazirliyində 2, Dövlət Turizm Agentliyində 2, Qida Təhlükəsizliyi Agentliyində 1, Maliyyə Nazirliyində 1, Audiovizual Şurada 1 vakant vəzifə daxili müsahibə elanına çıxarılıb. Qanunvericiliyin tələblərinə uyğun olaraq, daxili müsahibə üzrə sənəd qəbulu elektron qaydada həyata keçirilir. Bu proses vətəndaşların rahatlığının təmin edilməsi, vaxt itkisinin və maliyyə xərclərinin qarşısının alınması, habelə Mərkəz tərəfindən göstərilən dövlət xidmətlərinin daha əlçatan olmasına imkan verir. Daxili müsahibədə aşağıdakı kateqoriyalara aid şəxslər iştirak hüququna malikdir:

• Vakant vəzifəni təqdim etmiş dövlət orqanında inzibati vəzifələrdə qulluq keçən və inzibati vəzifələrin təsnifatına uyğun ixtisas dərəcəsi olan dövlət qulluqçuları;

• Dövlət orqanının ləğvi, dövlət qulluqçularının sayının və ya ştatlarının ixtisarı ilə əlaqədar daxili müsahibə elan edilən dövlət orqanında ehtiyat kadr kimi saxlanılan şəxslər;

• 1-3-cü kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin 1-3-cü təsnifatlarına uyğun olan vəzifələrə, habelə mərkəzi icra hakimiyyəti orqanlarında (Ali Attestasiya Komissiyası daxil olmaqla) şöbə müdiri, rəhbərin müşaviri və rəhbərin köməkçisi vəzifələrinə iddia edən şəxslər.

Daxili müsahibədə iştirak etmək istəyən namizədlər iyulun 4-ü saat 18:00-dək Mərkəzin internet portalında "Dövlət qulluğu üzrə müraciət Forması"nı doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Yeri gəlmişkən, on üç dövlət orqanında mövcud olan 47 vakant vəzifə üzrə mayın 26-dan başlanan daxili müsahibələr davam edir. Elana çıxarılan vəzifələr üzrə 202 nəfər qeydiyyatdan keçib. Artıq 26 namizəd müsahibələrdə uğur qazanaraq dövlət orqanlarında müxtəlif vəzifələrə uyğun bilinib. Müsahibələrin iyunun 16-dək keçirilməsi planlaşdırılır.

Qeyd edək ki, Azərbaycanda 2004-cü ildən etibarən dövlət qulluğuna qəbul test imtahanı və müsahibə vasitəsilə həyata keçirilməyə başlayıb 2004-2007-ci illərdə bunu Tələbə Qəbulu üzrə Dövlət Komissiyası həyata keçirirdi. Sonradan ölkə başçısının sərəncamına əsasən, Dövlət Qulluğuna Qəbul üzrə Komissiya fəaliyyətə başladı və bu missiyanı o yerinə yetirdi. 2016-cı ilin fevralında isə ölkə başçısının sərəncamı ilə Dövlət İmtahan Mərkəzi yaradıldı və dövlət qulluğuna qəbulun sözügedən qurum tərəfindən həyata keçirilməsinə qərar verildi. Amma 18 ilə yaxındır ki, Azərbaycanda dövlət qulluğuna qəbulun müsabiqə yoluyla həyata keçirilməsinə baxmayaraq, bu sahədə cəmiyyətdə hələ də məlumatsızlıq var. Bəs görəsən, dövlət qulluğuna qəbul üzrə imtahanlara qeydiyyat proseduru necədir? Bu imtahanlarda kimlər iştirak edə bilər? Bununla bağlı hansı tələblər var? Dövlət qulluğuna qəbul imtahanlarında iştirak etmək istəyənlər nələri bilməlidirlər?



**Elşən Qafarov,**
təhsil eksperti

> *Dövlət qulluğuna hazırlaşan namizəd ilk növbədə kateqoriyalar barədə məlumatlı olmalıdır*

### Ayda bir dəfədən az olmayaraq test imtahanı keçirilir

**Əvvəlcə ondan başlayaq ki, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 28.1-ci maddəsinə əsasən dövlət qulluğuna qəbul müsabiqə əsasında aparılır.** Müsabiqə test imtahanından və müsahibədən ibarətdir. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən inzibati və yardımçı vəzifələrin təsnifat toplusuna uyğun olaraq, birinci-beşinci kateqoriya dövlət orqanları, yerli icra hakimiyyəti orqanlarının yanındakı orqanlar və inzibati ərazi dairələri üzrə nümayəndəlikləri istisna olmaqla) inzibati vəzifələrin birinci-yeddinci təsnifatına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün ayda bir dəfədən az olmayaraq test imtahanları təşkil edir. Müsabiqəyə təqdim olunan vakant vəzifələr üzrə vəzifə təlimatları, müsahibə proqramları mütəmadi olaraq mərkəzin internet portalında yerləşdirilir.

Test imtahanı dövlət qulluğu vəzifələrinin növləri üzrə aşağıdakı qruplara uyğun keçirilir:

A növü - inzibati rəhbər (idarəetmə) vəzifələr üzrə:

AA qrupu;

AB qrupu;

AC qrupu.

B növü - inzibati icraçı vəzifələr üzrə:

BA qrupu;

BB qrupu.

Test imtahanında istifadə ediləcək test tapşırıqlarının aşağıdakı növləri var:

qapalı tipli, yəni verilən cavab variantlarından 1 doğru cavabın müəyyənləşdirilərək qeyd edilməsi tələb olunan test tapşırıqları;

açıq tipli, yəni cavab variantları verilməyən, doğru cavabın müəyyənləşdirilərək yazı ilə ifadə olunması tələb edilən test tapşırıqları;

sərbəst şəkildə cavablandırılan esse tipli tapşırıqlar.

Test imtahanında iştirak etmək üçün vətəndaşlar Mərkəzin internet portalı (bundan sonra - portal) vasitəsilə onlayn qeydiyyatdan keçir və portal vasitəsilə ona qeydiyyatdan keçdiyini təsdiq edən elektron bildiriş və namizədin hüquq və vəzifələrinin əks olunduğu yaddaş kitabçası göndərilir. Test imtahanının keçirilmə yeri və vaxtı Mərkəz tərəfindən müəyyən edilir və bu barədə imtahana azı 5 gün qalmış portalda məlumat yerləşdirilir. Mərkəz namizədin test imtahanında iştirakı ilə bağlı məlumatı özündə əks etdirən imtahana buraxılış vərəqəsini portalda yerləşdirir və namizəd onu çap edərək əldə edir.

Namizəd şəxsiyyətini təsdiq edən sənədi və imtahana buraxılış vərəqəsini təqdim etməklə, test imtahanında iştirak edir. İmtahan Mərkəzin qərarı əsasında kompüter və (və ya) kağız daşıyıcılar vasitəsilə keçirilir. İmtahanın davametmə müddəti Mərkəz tərəfindən imtahanın məzmunundan (namizədlərə verilən test tapşırıqlarının növündən və sayından) asılı olaraq, aşağıdakı qayda nəzərə alınmaqla müəyyən edilir:

qapalı tipli test tapşırıqlarının hər biri üçün 1 dəqiqə 30 saniyə;

açıq tipli test tapşırıqlarının hər biri üçün 2 dəqiqə;

esse tipli tapşırıqların hər biri üçün 30 dəqiqə.

Namizədin imtahanda verdiyi cavablar aşağıdakı qaydada qiymətləndirilir:

qapalı tipli test tapşırıqlarının hər birinin doğru cavablandırılması 1, yanlış cavablandırılması və ya cavablandırılmaması 0 balla;

açıq tipli tapşırıqların hər birinin doğru cavablandırılması 2, yanlış cavablandırılması və ya cavablandırılmaması 0 balla;

esse tipli tapşırıqların cavablandırılması cavabın həcmindən, strukturundan, fikirlərin və baxışların məntiqlilik dərəcəsindən, nümayiş etdirilən yaradıcılıqdan, arqumentasiyadan, söz ehtiyatından, orijinallıqdan, üslubdan və dil qaydalarına riayət edilməsindən asılı olaraq 0 - 30 balla, cavablandırılmaması 0 balla.

Test imtahanının nəticələri haqqında məlumat portalda yerləşdirilir. Test imtahanından keçən şəxsə inzibati və yardımçı vəzifələrin təsnifat toplusuna uyğun olaraq test imtahanından keçdiyini təsdiq edən sertifikat verir. Sertifikatın qüvvədəolma müddəti beş ildir. Şəxs dövlət qulluğu vəzifələri üzrə bir neçə sertifikat ala bilər.Dövlət qulluğunun müvafiq vəzifəsi üzrə test imtahanından keçdiyini təsdiq edən sertifikatı qüvvədə olan şəxs müsahibədə iştirak edə bilər. Müsahibədə iştirak etmək istəyən şəxs müsahibənin keçirilməsi elan edildiyi gündən 30 gün müddətində Mərkəzin portalı vasitəsilə dövlət qulluğu vəzifəsinin aid olduğu dövlət orqanına müraciət edir. Müsahibə sənədlərin qəbulu başa çatdıqdan sonra 30 gün ərzində keçirilir.

### Ən böyük problem müsahibə zamanı ortaya çıxır

**■ Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən ekspert Elşən Qafarov bildirib ki, dövlət qulluğuna hazırlaşan namizəd ilk növbədə kateqoriyalar barədə məlumatlı olmalıdır:** "Daha sonra imtahanlara hazırlaşmalıdır. Bildiyimiz kimi, imtahana 4 fənn blokundan suallar salınır. Bunlar qanunvericilik, məntiq, Azərbaycan dili və informatikadır. Namizəd test mərhələsini uğurla başa vurduqdan sonra müsahibə mərhələsinə buraxılır. Müsahibə mərhələsi isə müvafiq kateqoriya üzrə mərkəzi icra hakimiyyəti orqanında keçirilir. Əslində dövlət qulluğuna qəbulda ən böyük problem müsahibə mərhələsində ortaya çıxır. Çünki müvafiq vəzifələr qabaqcadan bəlli olduğuna görə bu vəzifəyə təyin olunmaq istəyənin 2 yolu qalır. Ya bir çox hallarda namizəd doğrudan da imtahandan keçərək bilir ki, artıq onu müsahibədə gözləyənlər var. Belə namizədlərin sayı azdır. İkinci bir hal odur ki, "Dövlət qulluğu" haqqında qanuna görə, hansısa şəxs müvəqqəti olaraq vakant olan vəzifəyə təyin edilə bilər. Və həmin şəxs 3 aylıq sınaq müddətindən sonra artıq dövlət qulluqçusu kimi dərəcə alır. Nəticə etibarilə dövlət qulluğuna qəbul imtahanını keçmədən də şəxs müvafiq vəzifəni tuta bilir. Hazırda bildiyim qədər bir neçə min namizəd var ki, onlar gözləmədədirlər".

Ekspert vurğulayıb ki, imtahan mərhələsində yüksək bal toplayanların dövlət qulluğunda çalışmaq üçün şansı daha böyükdür: "Amma müsahibə mərhələsində kim əvvəlcədən "sövdələşməyə" gedibsə, onun şansı yüksəkdir. Lakin təktək hallarda necə deyərlər, yetim-yesirə də qismət olur o qapını aşmaq. Məsələn, götürək, Təhsil Nazirliyini. Təhsil Nazirliyindəki vəzifələr dövlət qulluğuna aiddir. Bu qurumda şöbə müdirləri, sektor müdirləri hansı biri dövlət qulluğu imtahanından keçib. Hamısı işə müvəqqəti təyinat alıb, dərəcə əldə edib, ondan sonra həmin şəxslərlə müqavilə bağlanılıb. Bu mənada hesab edirəm ki, dövlət qulluğuna qəbulun müsahibə mərhələsində müəyyən addımlar atmaq lazımdır. Bununla bağlı elə bir mexanizm yaradılmalıdır ki, layiqli kadrları ortaya çıxarmaq və mümkün olsun. Çünki hazırda dövlət qulluğuna qəbul prosesinin müsahibə mərhələsində çox ciddi problemlər var".

*✍ Sevinc*



# Şəhid ailələri və qazilərə dövlət qayğısı

**Azərbaycanda şəhid ailələri və müharibə əlillərinin problemlərinin həlli dövlət üçün prioritet məsələlərdən hesab edilir. Dövlət tərəfindən bu kateqoriyadan olan insanlara mütəmadi olaraq dəstək göstərilir və müxtəlif sosial layihələr icra olunur. Bununla bağlı ölkə Prezidenti dövlət orqanları qarşısında vəzifələr müəyyənləşdirir, lazımi tapşırıqlar verir, normativ hüquqi aktlar qəbul olunur, mövcud qanunvericilikdə dəyişikliklər edilir. Bu müqabildən olan şəxslərin sosial ödənişləri artırılır, mənzil məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində və digər praktik tədbirlər həyata keçirilir.**

Müharibədən sonra "YAŞAT" Fondu yaradılıb ki, bu da həmin müqabildən olan ailələri daim diqqətdə saxlayır, onlara dəstək tədbirləri həyata keçirir. Qeyd edək ki, görülən tədbirlərin davamı olaraq bu il daha 1500 şəhid ailəsi və müharibə əlilinə mənzil və fərdi evin verilməsi nəzərdə tutulub. Ümumilikdə isə 2021-ci ildə 3 min, 44 günlük Vətən müharibəsindən sonra isə 3500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlərlə təmin edilib. Bunu Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov postmüharibə dövründə şəhid ailələri və müharibə əlillərinin mənzil və avtomobillə, sosial xidmətlərlə təminatı işlərinə dair keçirdiyi mətbuat konfransında bildirib.

Qeyd olunub ki, Prezident İlham Əliyevin tapşırığına əsasən şəhid ailələri və müharibə əlillərinin mənzil təminatı proqramı 2021-ci ildə 5 dəfə genişlənib və keçən il 3 min mənzilin bu kateqoriyalardan olan şəxslərə verilməsi proqramı icra olunub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ötən dövrdə ümumilikdə 12500-dən çox şəhid ailəsi və müharibə əlilinə mənzil və ya fərdi ev verilib. Dövlət başçısının 25 avqust 2021-ci il tarixli Sərəncamı ilə Vətən Müharibəsi Qəhrəmanlarına və onlardan şəhid olanların ailələrinə də mənzillər verilir. Bu il artıq sosial cəhətdən həssas qruplardan olan ailələrə 500-dən çox mənzil verilib. Cari il ərzində ümumilikdə 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulub.

> *Bu gün şəhid ailələri və qazilər cəmiyyətimizin ən hörmətli rəğbətlə qarşılanan bir ayrılmaz hissəsidir*

Müharibə əlillərinin avtomobillə təminatı tədbirləri çərçivəsində son 4 ildə də 1450-dək, ümumilikdə ötən dövrdə 7400 müharibə əlili avtomobillə təmin edilib. Bu il müharibə əlillərinə 50, 44 günlük Vətən müharibəsindən sonra ümumilikdə 200, ümumilikdə ötən dövrdə 7400 avtomobil verilib. Bundan başqa, postmüharibə dövründə 450-dən çox şəhid ailəsi və müharibə əlilinə sanatoriya-kurort və müalicə mərkəzlərinə yollayış verilib, 41 nəfər müharibə əlili peşə reabilitasiyasına cəlb olunub, 60 qazi üçün motivasiya düşərgələri təşkil olunub. Həmçinin Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsinin Görmə qabiliyyəti məhdudluğu olan şəxslər üçün sosial reabilitasiya və bərpa şöbəsində qazilər tibbi, pedaqoji, idman, mədəniyyət və incəsənət, psixoloji, eləcə də digər sosial reabilitasiya xidmətlərinə cəlb ediliblər.

**■ Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən millət vəkili Musa Qasımlı da bildirib ki, dövlətimiz şəhid ailələrinə və qazilərə xüsusi diqqət göstərir:** "Bu diqqət konkret formalarda təzahür edir. Şəhid ailələri və qazilər üçün mənzillər, evlər tikilir, onlara maşınlar verilir, bir çox sosial təminatları yerinə yetirilir. Onların övladlarının təhsilin müxtəlif dərəcələrində təhsil haqlarını dövlət özü ödəyir, bir sıra güzəştlər tətbiq edilir. Bu gün şəhid ailələri və qazilər cəmiyyətimizin ən hörmətli rəğbətlə qarşılanan bir ayrılmaz hissəsidir".

*✍ Sevinc*



**■ "Qarabağ məsələsi Ermənistan və Azərbaycanın delimitasiya komissiyalarının fəaliyyəti ilə əlaqəli deyil".**

Bunu Ermənistanın Baş naziri Nikol Paşinyan "Əl-Cəzirə" telekanalına müsahibəsində deyib. Paşinyan qeyd edib ki, Bakı və İrəvanın fərqli ünsiyyət formatları var və bu formatlardan biri delimitasiya məsələsinə aiddir. Onun sözlərinə görə, Ermənistan-Azərbaycan dialoqunun ikinci istiqaməti İrəvan və Bakı arasında münasibətlərin normallaşdırılması formatıdır: "Regional nəqliyyat və iqtisadi kommunikasiyaların açılması ilə bağlı üçüncü istiqamət də var. Lakin, əlbəttə, regionda sülh üçün ən vacibi Qarabağ məsələsidir".



**■ Nataliya Poklonskaya Rusiyanın Baş prokuroru İqor Krasnovun müşaviri vəzifəsinə təyin olunub. Bu barədə məlumatı Poklonskaya öz teleqram kanalında açıqlayıb. Onun sözlərinə görə, bununla əlaqədar olaraq, sosial şəbəkə hesablarının istifadəsini və ictimai fəaliyyətini dayandırır.**

Xatırladaq ki, Rusiya Prezidenti Vladimir Putin iyunun 13-ü Nataliya Poklonskayanı ölkənin Müstəqil Dövlətlər Birliyi məsələləri, xaricdə yaşayan həmvətənlər və beynəlxalq humanitar əməkdaşlıq üzrə Federal Agentliyinin ("Rossotrudniçestvo") rəhbərinin müavini vəzifəsindən azad edib. Putin N. Poklonskayanı cari ilin fevral ayında Kabo-Verdedəki səfir vəzifəsindən azad edərək bu vəzifəyə təyin etmişdi.



**■ Ukrayna Prezidenti Volodimir Zelenski amerikalı həmkarı Co Baydenin Ukraynanın ABŞ-ın xəbərdarlıqlarına məhəl qoymaması ilə bağlı tənqidlərinə cavab verib.**

Onun sözlərinə görə, Co Bayden daxil olmaqla, bir çox avropalı liderə Ukraynanın müharibənin başlaması üçün Rusiyaya qarşı qabaqlayıcı sanksiyalar tətbiq etməklə bağlı tələblərini dinləyibdinləmədikləri ilə bağlı sual ünvanlanmalıdır. "Avropalı liderlərin əvvəlcədən məni Ukrayna dövlətinin başçısı olaraq dinləməleri ədalətli olardı", - deyə Zelenski söyləyib. O vurğulayıb ki, Ukrayna Rusiyanın Qara dənizi bağlayacağını əvvəlcədən deyib.



**■ "Azərbaycanda 4 məktəbdən 3-ü və ya təhsil müəssisələrinin 75-80 faizi tədrisə yararlı vəziyyətdədir". Hafta.az xəbər verir ki, bu barədə təhsil naziri Emin Əmrullayev AzTV-də yayımlanan "Hədəf" verilişində bildirib.**

O qeyd edib ki, qəzalı məktəblər tədricən təmir olunur və ya yeniləri ilə əvəzlənir: "Ümumilikdə 3500 məktəbdə vəziyyət yaxşıdır. Qəzalı məktəblərimiz var, biz bunu bilirik. 900 belə məktəbi eyni anda tikib təhvil vermək çətindir. Hər il təxminən 70-80 məktəbi təmir edirik. Təmir etdikcə digər məktəblər də sıradan çıxa bilər. Hansısa məktəbin damında uçuq olanda və ya hansısa problem yarananda çalışırıq dərhal reaksiya verək".



**■ Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) "Azad qadın" heykəlinin ətrafında aparılan təmir işləri ilə bağlı məlumat yayıb.**

Qurumun Mətbuat xidmətindən bildirilib ki, hazırda Bakı Şəhər İcra Hakimiyyəti Təmir-Tikinti MMC tərəfindən ərazidə sınmış və ya zədələnmiş qranit və mərmər daşları sökülüb yeniləri ilə əvəz olunur, ərazi abadlaşdırılır. O da qeyd olunub ki, abadlıq işlərinin sonunda ərazi yaşıllaşdırılacaq, yeni gül və kollar əkiləcək, qazon salınacaq, ərazi gözəl məkana çevriləcək. Mətbuat xidməti əlavə edib ki, Azərbaycan dünyəvi dövlətdir, dövlət tərəfindən mühafizə olunan bu tarix-mədəniyyət abidəsinin sökülməsindən söhbət gedə bilməz və bu heç bir çərçivəyə sığmır.



**■ Bolqarıstanın Baş naziri Kiril Petkov yay aylarında yeni Bolqarıstan-Yunanıstan birləşdirici qaz kəməri (Interconnector Greece-Bulgaria-IGB) vasitəsilə Azərbaycan qazının tədarükünün başlanmasını gözləyir.**

Bu barədə Kiril Petkov Veliko Tırnovoda keçirdiyi brifinq zamanı bildirib. "Təchizat həcmini təsdiqləmək üçün bu həftə Bakıya səfər edəcəyəm", - deyə Baş nazir qeyd edib. Onun sözlərinə görə, IGB işə salındıqdan sonra Bolqarıstan ildə 1 mlrd. kubmetr həcmində Azərbaycan qazı qəbul edə biləcək: "Gözləyirəm ki, iyul-avqust aylarında Bolqarıstana bir milyard kubmetr hazırda bazar qiymətindən bir neçə dəfə aşağı qiymətə qaz gələcək".

# Azərbaycanda erməni dilini kimlər öyrənir?

***Bir neçə il sonra işğaldan azad edilmiş ərazilərimizdə soydaşlarımızla erməniəsilli Azərbaycan vətəndaşları kompakt şəkildə yaşamağa başlayacaq. Belə olduğu halda erməni dilini bilən yerli məmurlara ehtiyac yaranacaqmı? Hazırda ölkəmizdə erməni dilini bilən kadrlara daha çox hansı fəaliyyət sahəsində zərurət var? Bu dilin tədrisi harada təşkil edilir?***



## Aktual

■ **Məsələ ilə bağlı tarixçi professor, AMEA-nın müxbir üzvü, millət vəkili Musa Qasımlı hafta.az-a açıqlamasında bildirdi ki, Azərbaycan Respublikasında yaşayan bütün vətəndaşların hamısı etnik kökündən asılı olmayaraq dövlətimizin dili olan Azərbaycan dilini bilməlidir. Çoxlu dil bilmək ziyanlı deyil, üstünlükdür. Ayrıca erməni dilini hamının bilməsi lazımdırmı? Ölkəmizdə bir neçə etnik qrup yaşayır.**

Onların hamısı bərabərhüquqlu vətəndaşlardır. "Erməni dilini bilən şəxslərə gəlincə, hesab edirəm, bəzi universitetlərimizdə Qafqazşünaslıq ixtisasında tələbələr və magistrlər təhsil aldıqlarından onlara erməni dili də öyrədilir. Həmin şəxslər universiteti bitirdikdən sonra bəziləri elmi tədqiqatlarla məşğul olur, bəziləri isə dövlət və hökumət qurumlarında işləyir. Müvafiq istiqamətlərdə çalışan şəxslərin, məmurların, xidmət keçənlərin həmin dövlətin dilini bilməsi üstünlükdür. Ona görə də təkcə erməni dilinin deyil, qonşuluğumuzda olan digər xalqların da dillərinin bilinməsində ziyanlı heç nə yoxdur. Yaxşı haldır ki, indi ölkəmizdə Qafqaz regionunun araşdırılmasına, xalqlarının dillərinin mənimsənilməsinə, müvafiq tədqiqatların aparılmasına xüsusi fikir verilir, Qafqazşünaslıq İnstitutu fəaliyyət göstərir. Biz ilk növbədə qonşularımızı dərindən öyrənməliyik".

■ **BDU-nun Erməni Araşdırmaları və Təlim Mərkəzinin direktoru İsmayıl Tanrıverdi isə söylədi ki, bu gün Azərbaycanda erməni dilini bilən kadrlara daha çox mətbuatda və güc nazirliklərində tələbat var:** "Azərbaycanda erməni dilinin öyrənilməsinə 2012-ci ildən başlanılıb. İlk olaraq, cənab Prezidentin göstərişi ilə ATV kanalında imtahanlar keçirildi və oradan erməni dilini yaxşı bilənlərin seçimi oldu. Onlar hazırda CBC kanalındadır. Mahiyyət ondan ibarətdir ki, düşmənin dilini bilmək mütləqdir. Yüz il əvvəl türk dili ermənilərin ikinci ana dili olmuşdu. O zamanlar bizim onların dilini öyrənməyimizə ehtiyac yox idi. İndi erməni dilinə tələbat daha çox mətbuatdadır. Daha sonra güc nazirliklərində bu dili bilən kadrlara zərurət yaranır".

> *Tək erməni dilinin deyil, qonşuluğumuzda olan digər xalqların da dillərinin bilinməsində ziyanlı heç nə yoxdur*

> *Bu gün Azərbaycanda erməni dilini bilən kadrlara daha çox mətbuatda və güc nazirliklərində tələbat var*

Direktorun sözlərinə görə, ölkəmizdə erməni dili rəsmi olaraq Bakı Dövlət Universitetində və Azərbaycan Dillər Universitetində tədris edilir. Həmçinin bununla bağlı müvafiq dərsliklər də çap olunub:

"Bundan başqa kurslarda da bu dilin öyrədilməsi həyata keçirilir. Bu ilin may ayından etibarən BDU-da ayrıca olaraq Erməni Dili Mərkəzi yaradıldı. Mərkəzin drektoru mənəm. Mərkəz olaraq son 2 ay ərzində 2 dərslik kitabı buraxmışıq. Sözügedən dərsliklər erməni dilini ən asan üsulla öyrədən dərs vəsaitləridir".

Xatırladaq ki, ötən il UNEC-də tədqiqatçılar üçün 6 aylıq erməni dilinin tədrisinə başlanılmışdı. Ermənistan İqtisadiyyatının Araşdırma Mərkəzi tərəfindən təşkil olunan təlimlərin məqsədi tədqiqatçılarımıza Ermənistan mətbuatını mütəmadi izləmək, Ermənistanın mövcud iqtisadi durumu və gələcək vəziyyəti ilə bağlı erməni dilində olan mənbələrdən daha dolğun məlumat əldə etmək, həmçinin bu dildə olan elektron resurslardan istifadə etməklə araşdırmalar aparmaq, eləcə də analitik təhlil materialları hazırlamaq, elmi məqalələrlə çıxış edərək dünya ictimaiyyətini məlumatlandırmaq imkanı yaratmaqdan ibarət olub.

Həmçinin, 2015-ci ildə siyasi elmlər doktoru, əslən Ermənistandan olan Hatəm Cabbarlının yazdığı erməni dili dərsliyi Bakıda Azərbaycan Respublikasının prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi tərəfindən çap edilib. 2018-ci ildə isə Bakı Dillər Universiteti Qafqazşünaslıq kafedrasının baş müəllimi Hüseyn Əsgərovun yazdığı "Erməni dilinin qrammatikası" dərsliyini nəşr edib.

**Banu**

# Turistləri daşıyan avtobus qəzaları

***Məlum olduğu kimi, iyunun 12-də Qəbələdən Bakıya hərəkət edən sərnişin avtobusu qəzaya düşüb. Nəticədə, avtobusda olan Bakı şəhəri 279 nömrəli məktəbin şagirdləri, onların sinif rəhbəri və valideynlər müxtəlif dərəcəli bədən xəsarətləri alıblar. Xatırladaq ki, bu qəza iyun ayı ərzində baş vermiş ikinci belə hadisədir. Bir həftə öncə isə oxşar yol nəqliyyat hadisəsi Şəki şəhərində baş vermişdi. Sözügedən qəzada 22 nəfər turisti daşıyan avtobus dərəyə yuvarlanmışdı.***



Hafta.az məsələ ilə bağlı ilk olaraq Bakı şəhəri 279 nömrəli məktəblə əlaqə saxlayıb. Təhsil ocağından verilən məlumata görə, 4-cü sinif şagirdlərinin valideynləri turu məktəbdənkənar planlaşdırıblar:

"Qəza hadisəsi baş verən avtobus "Empati travel" tur şirkətinə aiddir. Turu məktəbimizin dördüncü sinif şagirdlərinin valideynləri öz aralarında planlaşdırıblar. Daha sonra hörmət əlaməti olaraq sinif rəhbərini dəvət ediblər. Təfərrüatlar haqqında bizdə məlumat yoxdur".

Ardınca adıçəkilən tur şirkəti ilə əlaqə saxlamağa çalışsaq da, təəssüflər olsun, buradan zənglərimizə cavab verən olmadı. Qəzadan sonra belə təkliflər də səsləndirilir ki, tur şirkətlərinin peşəkar avtobus sürücüləri ilə işləyə bilmələri üçün Bakı Nəqliyyat Agentliyinin vahid sürücü bazasından istifadə etmələrinə şərait yaradılsın. Yəni, tur şirkətləri agentliyin bazasında yer alan peşəkar sürücülərlə əməkdaşlıq edib onları işə cəlb edə bilərlər.

■ **Sorğumuza Bakı Nəqliyyat Agentliyinin mətbuat katibi Mayis Ağayevin cavabı belə oldu ki, bu məsələ BNA-ya aid deyil. Burada söhbət şəhərdaxili müntəzəm marşrut xətləri sürücülərindən getmir.**

Belə vəziyyətlərin yaşanmasında kimlər məsuliyyət daşıyır? Tur şirkətləri ilə əməkdaşlıq zamanı hansı meyarlara diqqət etmək lazımdır?

Bu barədə saytımıza danışan nəqliyyat məsələləri üzrə ekspert Aslan Əsədov söylədi ki, xüsusilə azyaşlıların iştirakı ilə keçirilən qəzalar cəmiyyət arasında pislənilir. Burada sürücü məsuliyyətsizliyi və tur rəhbərinin və nəqliyyat vasitəsini təqdim edən şirkətin üzərinə məsuliyyət düşür:

"Burada istismar qaydalarına baxdıqda sürücünün yorğunluğunu nəzərə almalıyıq. Yaxşı olardı ki, uzun yol sürücülərini mütəmadı olaraq əvəz edəcək şəxslər olsun. Qəza baş verdikdən sonra sürücü məsuliyyəti rəhbərliyə, rəhbətlik də sürücünün üzərinə atır, bu da normal haldır. Fakt budur ki, müəyyən tədbirlər görülməsə, belə xoşagəlməz hallar gələcəkdə də yaşana bilər".

> *Qəzaya görə məsuliyyət sürücü və tur şirkətin üzərinə düşür*

Nəzərinizə çatdıraq ki, baş vermiş qəzaların ardından, Qubada yerli və xarici turistləri daşıyan avtobuslarla bağlı reyd keçirilib. Keçirilən tədbirlərlə bir daha sərnişindaşıma ilə məşğul olan sürücülərə normativ aktlar və qaydalar izah olunaraq bildirilib ki, əsasən ümumi istifadədə olan hər bir nəqliyyat vasitəsi işdən sonra mütləq şəkildə qaraja aparılmalı, nəqliyyat vasitəsi texniki cəhətdən yoxlanılıb, nasazlıq varsa aradan qaldırılıb, növbəti gün xəttə buraxılmalıdır. Sürücülər isə xəttə çıxmazdan əvvəl tibbi müayinədən keçməlidirlər.

Qeyd edək ki, qəzaya uğrayan avtobusun sərnişinləri, ümumilikdə 36 şagird (32 nəfər IV sinif və onların ailə üzvləri olan 4 nəfər digər sinif şagirdi), 4-cü sinfin rəhbəri olan müəllim və 19 nəfər valideyndən ibarət olub.

**Banu**



# Siyasi partiyalar ictimai şuralarda təmsil olunmaq istəyir

**Cəmiyyətin demokratik inkişaf yolu bütün fəaliyyət istiqamətlərindəki boşluqların aradan qaldırılması ilə doldurula bilər. Bu, müasir dövrümüzün əsas tələblərindən biri kimi önə çıxır. Yeni müstəvi, yeni reallıq mövcud problemlərin köklü şəkildə həllini tək bir idarəçinin, səlahiyyətli şəxsin, orqanların məsuliyyəti missiyasında görmür. Bu, bütövlükdə cəmiyyətin, sosial ictimaiyyətin nəzarəti, vətəndaşın özünün müdaxiləsi ilə həllini ehtiva olunur.**

## Müzakirə

İctimai nəzarət, ictimai fikrin düzgün formalaşması, ayrı-ayrı idarə və komitələrdə yaradılan ictimai şuraların fəaliyyəti, eləcə də ictimai-siyasi təşkilatların ictimai şuralarda təmsilçiliyi gündəmin əsas mövzusu kimi bu gün də birmənalı qarşılanmır. Maraqlıdır, ictimai şuralarda siyasi partiya nümayəndələri olarsa bu, cəmiyyətə nə verə bilər?

■ **Milli Məclisin deputatı Ceyhun Məmmədov hafta.az-a açıqlamasında bildirib ki, birinci növbədə, Azərbaycanda siyasi partiyaların fəaliyyəti, gördüyü işlər nəzərdən keçirilməlidir.**

"Hər bir ölkədə sağlam müxalifət, siyasi partiyalar dövlətin inkişafına öz töhfələrini verir. Dünya təcrübəsində belə yanaşma və ənənələr var. Azərbaycanda sağlam siyasi partiyaların fəaliyyətini gücləndirmək məqsədəuyğundur. Sağlam partiyalar dövlətin qurucuuğunda iştirak edə bilərlər". C.Məmmədov hesab edir ki, siyasi partiyaların ictimai şuralarda təmsil olunmaları nəzərdən keçirilə bilər.

"Hesab edirəm, söhbət siyasi partiyaların dövlət qurumlarında idarəçiliyin inkişafının güclənməsinə dəstəkdən gedirsə, siyasi partiyaların seçimi də düzgün olmalıdır. Birinci, siyasi partiyalar düzgün fəaliyyət göstərməli və onların seçimi düzgün həyata keçirilməlidir. Siyasi partiyalar şəxsi maraqlarının həyata keçirilməsini yox, dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsi və gücləndirilməsini hədəfə almalıdır. Hesab edirəm ki, məsələyə bu formada yanaşsaq, hansısa nəticələr əldə edə bilərik".

■ **Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə hafta.az-a bildirib ki, siyasi partiyalar cəmiyyətdə müəyyən bir fikrin formalaşmasına təsir etmək imkanına malikdir. Onun fikrincə, siyasilər əsasən mətbuat, keçirdiyi aksiyalar, bəyanatlarla cəmiyyətə təsir edə bilir. Bu imkanlar fikrin düzgün formalaşmasına xidmət edəndə daha dəyərli olur.**

"Bəzən siyasi partiyalar ağı-ağ, qaranı -qara görməkdən imtina edir, hər şeyi qara görürlər. Təbii ki, belə hallar ictimai fikrə mənfi təsir edir. Hesab edirəm, Azərbaycanda düzgün fikrin formalaşmasında iştirak edən siyasi partiyalar çoxdur. Müəyyən siyasi təşkilatlar, partiyalar var ki, özlərinin düşündükləri kimi cəmiyyətə təsir edirlər. Azərbaycanda düzgün ictimai fikrin formalaşmasında iştirak edən siyasi partiyalar çoxdur. Hətta müxalifət partiyaları olsalar da, yaxşını görür, pisi isə qanunun imkan verdiyi şəkildə tənqid edib fikirlərini bildirir, radikallıqdan uzaq olurlar".

Ç.Qənizadə hesab edir ki, siyasi partiyaların ictimai şuralarda təmsil olunması məsələsinə diqqətlə baxmaq lazımdır.

"İctimai şuraların fəaliyyəti o qədər də ürəkaçan deyil. İctimai şuralar öz funksiyalarını yerinə yetirə bilmirlər. Bu baxımdan siyasi təşkilatların da həmin şuralarda olmasında pis bir şey görmürəm. Mən təklif edərdim ki, siyasi partiya nümayəndələrinin təkcə ictimai şuralarda yox, dövlət işlərində iştirakının tətbiqinə keçək. Qoy hər bir nazirlikdə bir partiyanın nümayəndəsi yüksək vəzifəyə qoyulsun, orada gedən proseslərin içində olsun. Əgər rüşvət, korrupsiya halları varsa bununla bağlı öz mövqeyini ortaya qoysun. Qurumun fəaliyyətinin düzgün qurulmasında öz töhfəsini versin. Bu da məqbul məsələlərdən biridr".

■ **Vətəndaş Cəmiyyəti Alyansının rəhbəri, tənqidci-analitik-kulturoloq Aydınxan Əbilov hafta.az-a bildirir ki, Azərbaycanda siyasi mühit və ictimai-siyasi təsisatların fəlsəfəsi, işlək mexanizmi tamam fərqlidir.** Onun fikrincə, burada dünyanın ən inkişaf etmiş siyasi mexanizmlərini tətbiq etsək də, istənilən nəticə alınmır. Tənqidçi təəssüflə qeyd edir ki, Azərbaycanda siyasi partiyalar get-gedə zəiflədi və onların ictimai fikrə, ölkədə baş verən ictimai-siyasi proseslərə təsir etmək imkanı minimuma endi. Siyasi partiyaları 3 yerə bölməklə məsələyə tənqidi yanaşan A.Əbilov hesab edir ki, bütün hallarda dünyada olduğu kimi, ictimai tənqidin əsas subyekti olan siyasi partiyalara böyük ehtiyac var. Onun fikrincə, nə qədər ki, biz bu mexanizmləri yaratmamışıq, siyasi partiyalara nə ictimai şurada, nə də digər yerlərdə vəzifələr verməklə hansısa dövlət strukturunun işini təkmilləşdirib irəli aparmaq mümkün deyil.

> *Siyasi partiyaların ictimai şuralarda təmsil olunmaları nəzərdən keçirilə bilər*

> *Siyasi təşkilatların həmin şuralarda olmasında pis bir şey görmürəm...*

> *Siyasi partiyaları ictimai şuralara calamaqla nə düzələcək?!*

"Siyasi müxalifətin komitələrdə, nazirliklərdə təmsil olunması elə də ciddi məsələ deyil. İqtidar, dövlət başçısı o qədər güclüdür, nüfuzludur ki, klassik siyasi mexanizmlərin Azərbaycanda işləməsinə ümid etmək olnaz. Real olaraq İlham Əliyevın sədri olduğu YAP-a qarşı kadr potensialına, intellektinə, strukturlaşmasına görə, respublikaları əhatə edəcək şöbələr və onu əhatə edəcək elə bir partiya tanımıram. Az-çox nüfuzu olan partiyalar gənclərin hesabına, sosial media, internet resurslarının hesabına üzdədirlər. Əslində, o partiyalarda da heç bir işlək mexanizm yoxdur. Hər bir partiyanın ayaqda durması həm də onun stabil maliyyə inkanlarından qaynaqlanır. Maliyyə yoxdursa, demək partiya fəaliyyət göstərə bilməz. Əgər partiya üzvləri işsizdirsə, həmin partiyadan hansısa müsbət fəaliyyət gözləmək lazım deyil". A.Əbilov bildirir ki, QHT sədrlərinin iştirakı ilə formalaşdırılan ictimai şuralar çox amorf bir quruma çevrilib.

"Bir-iki ictimai şuranı çıxmaq şərtilə demək olar ki, hamısı sıfır vəziyyətdədir. Onların işi nazirin, komitə sərdinin iradəsinə tabedir. Bunlar qorxmadan, çəkinmədən gördükləri ictimai problemləri həm dövlət qarşısında qaldırmalı, həm də cəmiyyəti düşündürən məsələlərlə bağlı obyektiv, real mexanizmlərə malik təkliflərlə çıxış etməlidirlər. İctimai şuralar belə vəziyyətdə olduğu halda siyasi partiyaları da gətirib ora calamaqla nə düzələcək? Ona görə də İctimai Şura mexanizmi tamam dəyişməlidir".

**Tahirə Qafarlı**

# Məhəmməd Peyğəmbər cəmiyyətdə ekstremizm problemini necə həll edirdi?

***Bu** günlərdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Azərbaycanda dini təfriqə yaratmaqda maraqlı olanlar barədə bəyanat yayıb. Sözsüz ki, dini camedə təfriqə salmaq istəyənlər bunu əsasən ifrat dindarlıq və ektremizm kimi cərəyanlara söykənərək həyata keçirməyə çalışırlar. İslam tarixi ilə maraqlandıqda bəlli olur ki, hələ Peyğəmbərimiz Məhəmməd əleyhissəlamın zamanında da dini ifratçılıq və ekstremizmlə mübarizə gündəmdə olub.*



## Araşdırma

**■ Bunu nəzərə alaraq hafta.az oxucularını dağıstanlı dini yazar Müslim Abdullayevin rusdlilli İslam saytlarında dərc olunmuş "Məhəmməd Peyğəmbər ekstremizm problemini necə həll edirdi?" başlıqlı yazısının tərcüməsi ilə tanış edir:**

"Allah-Taala insanları cəhalət zülmətindən çıxarıb haqq yola yönəltmək üçün Məhəmməd peyğəmbəri (s) göndərdi. Rəsulullah (s.a.s.) ən yaxşı rəhbər, təbliğatçı və məsləhətçi idi.

Məhəmməd peyğəmbər cəmiyyətdə yaranan problemləri həll etməklə yanaşı, onların meydana çıxmasına səbəb olan amilləri də aradan qaldıran bir şəxsiyyət idi. Sərt qanunların tətbiqi ilə o, cəmiyyətə zərər verməyə çalışan hər kəsə nəzarət edirdi.

Bu yazıda Allah Rəsulunun o dövrdə cəmiyyətdə tez-tez yaranan problemləri həll etmək üçün istifadə etdiyi bəzi üsullardan bəhs edəcəyik. Bu üsulların dühası onun peyğəmbərlik məqamının doğruluğuna dəlalət edir. Çünki o, etdiyi hər şeyi Allah-Taalanın göstərişi ilə etmişdir.

İslamın təbliğ etdiyi yüksək əxlaq və əxlaq dəyərlərinə uyğun gəlmədiyi üçün İslam cəmiyyətdə mütləq təhlükəsizliyin təmin edilməsinə və hər cür ekstremizmlə mübarizəyə xüsusi diqqət yetirir.

Allah-Taala Qurani-Kərimdə buyurur:

"Yaxşılıqla pislik eyni ola bilməz! (Ey mömin kimsə!) Sən (pisliyi) yaxşılıqla dəf et! (Qəzəbə səbirlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, cəzaya bağışlanmaqla cavab ver!). Belə olduqda aranızda düşmənçilik olan şəxsi, sanki yaxın bir dost görərsən! ("Fussilət" surəsi, 34-cü ayə).

Rəsulullahın (sallallahu aleyhi və səlləm) yaşadığı cəmiyyət ifratçılıq baxımından indiki cəmiyyətdən çox da fərqlənmirdi. O dövrlərdə ekstremizm problemi çox aktual idi və cəmiyyətdə bir çox insanlar bu ideyalara sadiq qalırdılar.

Baxın, Cəfər ibn Əbu Talib (Allah ondan razı olsun) Efiopiya hökmdarı Ən-Nəcaşiyə Qüreyşin qeyri-müsəlman cəmiyyətinin o dövrdəki vəziyyəti haqqında nə danışır:

"Əziz hökmdar, biz cahil bir tayfa idik, bütlərə sitayiş edirdik, leş yeyirdik, qızları diri-diri torpağa basdırırdıq, mehriban qonşuluq münasibətlərini korlayırdıq, haramlara icazə verirdik, bir-birimizin qanını axıdırdıq..." (Beyhəqi, "Dəlail ən-Nubuvva"; "Əs-Sirə ən-Nəbəviyyə").

O cəmiyyətdə adi olan qız uşaqlarının diri-diri basdırılması ənənəsinə nəzər salsaq, Məkkə cəmiyyətində ifratçılıq və qəddarlıq probleminin nə qədər dərin olduğunu görərik. Buna görə də Muğirədən (Allah ondan razı olsun) rəvayət olunan bir hədisdə Allah Rəsulu (sallallahu aleyhi və səlləm) bu ənənənin qəti qadağan olunmasını belə nəql edib:

"Həqiqətən, Allah-Taala sizə analarınıza hörmətsizlik etməyi, qızları diri-diri basdırmağı qadağan etmişdir..." (Buxari, 2408).

Rəsulullah (s.a.s.) ifratçılıq problemini həll etməyə başladı, öz səhabələrinə nəfsi idarə etmə kimi bir keyfiyyətə ehtiyacı təlqin etdi (bu halda onlar həmişə Uca Allahın onları seyr etdiyini xatırlayırlar).

Bu xüsusiyyətə malik olan insan Allah-Taalanın onun haqqında hər şeyi bildiyini dərk etdiyi, onun aşkar və gizli əməllərini daim izlədiyini xatırladığı üçün həmişə Rəbbin və insanların haqqına riayət etməyə çalışar, ifratçılıq göstərməz.

Muaz ibn Cəbəl (Allah ondan razı olsun) rəvayət edir ki, Allah Rəsulu buyurdu:

"Allaha heç bir şeyi şərik qoşmadan ibadət edin, Allah üçün əməllər edin, sanki Onu görürsən, əgər sən Onu görmürsənsə, şübhəsiz ki, O, səni görür. Özünü ölülərdən say və məzlumun duasından ehtiyat et, çünki o, cavabsız qalmaz (Beyhəqi, "Şuab əl-iman", 10060; Təbərani, "Əl-Mucəm əl-Kəbir", 374).

Rəsulullah ifratçılıq probleminin həllində bu üsulla məhdudlaşmadı, başqa addımlar da atdı.

Bir insanın yaşamalı olduğu cəmiyyətin müddəalarını formalaşdıraraq onun həmin cəmiyyətin üzvlərini istiqamətləndirən müəyyən dəyərlərə sahib olması qənaətinə gəldi:

1. Milli, dini və irqi ayrı-seçkiliyə yol vermədən cəmiyyət üzvləri arasında xeyirxahlıq və ədalət ruhunun yayılması.

Aişə (Allah ondan razı olsun) rəvayət edir ki, Rəsulullah (sallallahu aleyhi və səlləm) buyurdu:

"Ey Aişə! Həqiqətən, Allah mehribandır və O, hər şeydə yaxşılıq etməyi sevir. O, şiddətlə və ya başqa bir şeylə əldə edə bilmədiklərimizi mehribanlıqla əldə etməyə imkan verir. (İmam Əhməd, 902; Buxari, 6927; Müslim, 2593; Əbu Davud, 4807; İbn Macə, 3688; İbn Hibban, 549).

İmam Buxarinin Aişədən (Allah ondan razı olsun) rəvayət etdiyi bu hədisin başqa bir variantında Rəsulullahın (salləllahu aleyhi və səlləm) belə dediyi bildirilir:

"Tələsmə, Aişə! Xeyirxahlığa sarılın, sərtlikdən (ifratçılıqdan, ekstremizmdən) və ədəbsizlikdən çəkinin" (Buxari, 6030).

2. Səhv edənlərə mərhəmət.

Bu, müsəlman cəmiyyətinin riayət etməli olduğu ən böyük dəyərlərdən biridir, çünki o, cəmiyyətdə ekstremizm və terrorizmdən uzaq olan mərhəmətə əsaslanan münasibət yaradır.

Rəsulullahın bu dəyərə verdiyi əhəmiyyəti anlamaq üçün onun həyatına nəzər salaq. İshaq ibn Əbu Təlhətdən rəvayət olunur ki, Ənəs ibn Malik (Allah ondan razı olsun) demişdir:

"Bir dəfə biz Rəsulullah (sallallahu aleyhi və səlləm) ilə məsciddə olarkən bir bədəvi içəri girdi və məsciddə ayaqüstə ikən "kiçik" təbii ehtiyacını ödəməyə başladı. Peyğəmbərin (sallallahu aleyhi və səlləm) səhabələri ona qışqırdılar: "Hey, hey!". Allah Rəsulu "Ona mane olmayın. Onunla işiniz yoxdur", - dedi. İşini bitirənə qədər səhabələr ona qarışmadılar. Sonra Allah Rəsulu (s) bədəvini çağırıb ona dedi: "Məscidləri sidik və çirkab su ilə çirkləndirmək olmaz. Məscidlər ancaq Allahı zikr etmək, namaz qılmaq və Quran oxumaq üçündür" (Müslim, 285).



Görün, Rəsulullah bu münaqişəni necə yumşaq və hikmətlə həll edib. Səhabələrə səhv edənə, mahiyyət etibarilə ifratçılıq olan şiddət göstərməyi qadağan etmiş, xəta edənə isə məzəmmət və sərt qadağalarla qorxutmadan, gözəl şəkildə məsciddə rəftar və davranışları öyrədib.

3. Dində mötədillik və həddi aşmamaq.

Əbu Hureyrə (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (salləllahu aleyhi və səlləm) buyurdu:

"Həqiqətən, bu din asandır, lakin hər kəs onunla mübarizə etməyə başlasa, şübhəsiz ki, din ona qalib gələr. Ona görə də doğru olana sarılın və yaxınlaşın, sevinin və səhər, axşam və gecənin müəyyən vaxtında Allahdan kömək diləyin" (Buxari, 39; İbn Hibban, 351).

Yəni bu din çox asandır və əgər kimsə onunla mübarizə aparmağa, gücü çatmayan bir işi görməyə başlasa, məsələn, gecə-gündüz tam tükənənə qədər namaz qılsa və ya gündəlik oruc tutsa, bu, arzuolunmaz nəticələrə gətirib çıxarar. Gec-tez insan gücünü itirir və hər kəsin bacardığını belə, edə bilmir.

Ona görə də dində həddi aşmaq - fərqli fikirdə olanlara qarşı ifrata varmaq və onlara öz fikrini zorla qəbul etdirməyə aparan qapıdır.

4. Cəmiyyət üzvləri arasında sülh və harmoniya.

Həzrət Məhəmməd Peyğəmbər (s) insanın Rəbb qarşısında və cəmiyyətdəki üstünlüyünü və ləyaqətini onun cəmiyyətdə insanlara zərər vermədən yaşaya bilməsi ilə əlaqələndirib.

Əbu Burda rəvayət edir ki, Əbu Musa (Allah ondan razı olsun) deyib:

"Bir dəfə soruşdum: "Ya Rəsulullah, müsəlmanlardan hansı daha layiqlidir?" Peyğəmbər (salləllahu aleyhi və səlləm) belə cavab verdi: "O kəs ki, digər müsəlmanlara dili və əli ilə zərər verməz" (Buxari, 11; Müslim, 42).

5. Qan tökməyi qadağan etmək.

Allah Rəsulu diri canın öldürülməsini və günahsızın qanının axıdılmasını qəti şəkildə qadağan edərək bunu ən ağır günahlardan hesab etmişdir. O, hədislərində insanları bu günahdan uzaqlaşdırmaq üçün bu cinayətin şiddətini vurğulayıb.

Əbu Səid əl-Xudri və Əbu Hureyrə (Allah onlardan razı olsun) rəvayət edirlər ki, Rəsulullah (sallallahu aleyhi və səlləm) belə buyurub:

"Əgər göylərin və yerin bütün əhli bir möminin qanını tökməkdə günahkar olsalar, Allah onların hamısını Cəhənnəm oduna qərq edər" (Tirmizi, 1398).

Nəinki qan tökmək, hətta insanı qorxutmaq da qadağandır. Mömin insanı qorxudan və qorxuya səbəb olan hər bir işdən çəkinməlidir, çünki insanın həyatı toxunulmazdır.

Əbu Hureyrə (Allah ondan razı olsun) rəvayət edir ki, Əbu əl-Qasim (Allahın ona salavat və salamı olsun) dedi:

"Həqiqətən, mələklər silahının ucunu qardaşına tərəf yönəldəni, hətta bu şəxs öz qardaşı olsa belə, silahı geri çəkənə qədər lənətləyərlər" (Buxari, 7072; Müslim, 2616).

Beləliklə, Allah Rəsulu bu problemi həll etdi, cəmiyyətdə təhlükəsizliyi təmin etməyə çalışdı, necə adlanmasından asılı olmayaraq insanı hətta qorxuda biləcək hər şeyi; ifratçılıq, terror, zorakılıq və zülmü qadağan etdi və onlarla mübarizə apardı. Bütün bu hadisələr cəmiyyətdə qorxu və dəhşət yayır, insanları qorxuya salır, təhlükəsiz və dinc həyata mane olur. Cəmiyyətdə əmin-amanlıq isə onun inkişafının, tərəqqisinin təminatçısıdır".

***✍ Sultan Laçın***

## HƏFTƏ REYTİNQ

### Həftənin İŞSİZİ



Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi polis polkovniki Vaqif Əsədov təqaüdə göndərilib. Bununla bağlı daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov müvafiq əmr imzalayıb. Əmrə əsasən, V.Əsədov xidmətdə olmanın son yaş həddi ilə əlaqədar vəzifədən azad edilərək təqaüdə göndərilib. Qeyd edək ki, V.Əsədov uzun müddət Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi və mətbuatla əlaqələr üzrə məsul şəxs olub.

### Həftənin TƏXRİBATI



"Rusiya hərbçiləri Qarabağda Fərrux yaşayış məntəqəsi ətrafında vəziyyəti prioritet olaraq nəzərdən keçirir". Bunu İrəvanda səfərdə olan Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib. "Vəziyyətə gəldikdə, rusiyalı hərbçilər və bizim erməni dostlarımız bu barədə yaxşı məlumatlıdır, bunu öz prioritetlərindən biri kimi saxlayır. Bu vəziyyətin deeskalasiyası baxımından "yerdə" müəyyən nəticələr var. Bizdə anlayış var ki, delimitasiya ilə bağlı artıq başlayan predmetli iş çərçivəsində bu məsələlərə baxılacaq və mütləq həll olunacaq", - deyə Lavrov vurğulayıb.

### Həftənin NAMİZƏDİ



ABŞ Prezidenti Co Bayden 2024-cü ildə növbəti dəfə prezidentliyə namizədliyini irəli sürmək niyyətindədir. Bu barədə məlumatı Ağ Evin mətbuat katibi Karin Jan-Pyer təsdiq edib. "Deyə bilərəm ki, Prezident 2024-cü ildə namizədliyini irəli sürməyi planlaşdırdığını bir neçə dəfə bildirib", - deyə Jan-Pyer söyləyib.

### Həftənin ŞİKAYƏTİ



Müsavat partiyasının sabiq başqanı İsa Qəmbər ona təyin olunan pensiya məbləğinə görə Dövlət Sosial Müdafiə Fondunu (DSMF) məhkəmə verib. Bunu onun vəkili Nemət Kərimli bildirib. O qeyd edib ki, məsələ ilə bağlı müvafiq məktub birinci gün Bakı İnzibati Məhkəməsinə göndərilib. Vəkil qeyd edib ki, işin gedişi ilə bağlı ictimaiyyət müntəzəm olaraq məlumatlandırılacaq. Xatırladaq ki, İsa Qəmbərə 180 manat pensiya təyin olunub.

### Həftənin QALİBİ



Azərbaycan mini-futbol millisi Slovakiyanın Koşitse şəhərində keçirilən Avropa çempionatında final oyununa çıxıb. Elşad Quliyevin baş məşqçi olduğu komanda həlledici matçda Rumıniya ilə üz-üzə gəlib. Qarşılaşma komandamızın 1:0 hesablı qələbəsi ilə başa çatıb. Bununla da yığmamız Avropa çempionu olub. Qeyd edək ki, bu, Azərbaycan millisinin 10-cu dəfə təşkil edilən Avropa çempionatında ilk çempionluğudur.

### Həftənin XƏSTƏSİ



Kanadanın Baş naziri Castin Trüdonun koronavirus testi müsbət çıxıb. Baş nazir özü bu haqda sosial şəbəkədə paylaşım edib. "COVID-19 testimin nəticəsi pozitivdir. Lakin özümü yaxşı hiss edirəm. Mən Səhiyyə Nazirliyinin tövsiyəsinə uyğun şəkildə peyvənd olunmuşam" - deyə Trüdo qeyd edib.

### Həftənin TOYU



"Keşlə"nin sabiq futbolçusu Anatoli Abanq azərbaycanlı xanımla ikinci dəfə toy edib. Onlar bu dəfə Kamerunda evləniblər. İlk toyunu Bakıda edən cütlük Afrika ölkəsində də nikaha giriblər.

***✍ Azad Əliyev***

## GÜNÜN FOTOSU



**Maykl Ceksonun övladları mükafatlandırma gecəsində**

## Siyasi partiyalar ictimai şuralarda təmsil olunmaq istəyir

**Ceyhun Məmmədov,**
Milli Məclisin deputatı

Siyasi partiyaların ictimai şuralarda təmsil olunmaları nəzərdən keçirilə bilər.

▸▸ Səh. 7

## STATİSTİKA



■ 2022-ci ilin yanvar-may aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 17,7 milyard manatlıq, o cümlədən 10,1 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 7,6 milyard manatlıq qeyri-ərzaq malları satılıb. 2022-ci ilin yanvar-may aylarında alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 52,1 faizi ərzaq məhsullarının, 5,1 faizi içkilər və tütün məmulatlarının, 13,0 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,8 faizi avtomobil benzini və dizel yanacağının, 4,6 faizi elektrik malları və mebellərin, 2,5 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 1,2 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 15,7 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunb.



▸▸ Səh. 7

## Azərbaycanda erməni dilini kimlər öyrənir?